

100 ilin qəzeti

ŞƏRQ QAPISI

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Sayı: 46 (24.481)

29 noyabr 2025-ci il, şənbə

www.serqqapisi.az

Təsisçi: Naxçıvan Muxtar Respublikasının Ali Məclisi

# Dünyanı fəth edən diplomatiya, qitələri birləşdirən dövlət – Azərbaycan



***Çoxəsrlik tarixə, özünəməxsus zəngin ənənələrə malik Azərbaycan diplomatiyası 1993-cü ildən bəri yüksək inkişaf və tərəqqi mərhələsini yaşayır. Prezident İlham Əliyevin praqmatik düşüncə və qətiyyətə əsaslanan çoxvektorlu xarici siyasəti nəticəsində bu gün respublikamız uzaq coğrafiyaları yaxınlaşdıran, qitələri birləşdirən, beynəlxalq münasibətləri tənzimləyən, iqtisadi, mədəni körpülər salan nümunəvi diplomatik model formalaşdırıb. Bu model dünyanın ən nüfuzlu güc mərkəzləri, beynəlxalq təşkilatlar tərəfindən qəbul edilir, təqdir olunur.***

Azərbaycan diplomatiyasını özünəməxsus, fundamental edən birinci amil, sözsüz ki, onun milli maraqlara əsaslanmasıdır. Bu özünü irəli sürülən mühüm təşəbbüslərdə, reallaşdırılan regional, beynəlxalq əhəmiyyətli layihələrdə göstərir. Başqa sözlə, Prezident İlham Əliyevin də dəfələrlə dediyi kimi, regionda Azərbaycanın iştirakı, razılığı olmadan hər hansı layihənin uğurla reallaşdırılması qeyri-mümkündür. Otuz ilə yaxın cərəyan edən ictimai-siyasi hadisələr də sözü imzası qədər dəyərli olan liderin tam haqlı olduğu faktını ortaya qoyur. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Bakı-Tbilisi-Qars, TANAP, TAP, Cənub Qaz Dəhlizi, Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu, Zəngəzur dəhlizi və digər layihələr Azərbaycanı qlobal iqtisadiyyatda özünəməxsus iqtisadi modelə malik ölkə kimi səciyyələndirməklə onun bölgədəki nüfuzundan, münasibətlər sistemindəki fəal rolundan xəbər verir. Və ələlxüsus da, qeyd etdiyimiz kimi, bütün bunların təməlində xalqımızın milli maraqları, ölkəmizin ümumbəşəri hədəfləri dayanır.

Azərbaycan diplomatiyasının üstün məziyyəti onun humanizm, haqq, ədalət prinsiplərinə əsaslanması ilə özünü göstərir. Bu baxımdan, respublikamızın 44 günlük Vətən müharibəsində qazandığı tarixi zəfər ən gözəl nümunədir. Belə ki, dünya analitikləri, ekspertlər, politoloqlar tərəfindən II Qarabağ müharibəsi müzəffər Ordumuzun hərbi gücü ilə yanaşı, dövlətimizin siyasi iradəsinin, qətiyyətinin nəticəsi kimi xarakterizə olunur. Eyni zamanda respublikamızın BMT-dən sonra ikinci ən böyük təsisat sayılan Qoşulmama Hərəkatına 4 il sədrlik dönəmində, xüsusilə də COVİD-19 pandemiyası ilə mübarizədə, həmçinin ötən il 200-ə yaxın ölkənin yekdil qərarı ilə Bakıda keçirilən COP29 konfransında diplomatiyamızın ədalət prinsipləri öz sözünü ən bariz formada, qəti şəkildə dedi. Humanizm, haqq, ədalət anlayışı 14 illik vətəndaş müharibəsindən çıxmış Suriyaya qaz nəqlində, müharibə şəraitində yaşayan, acınacaqlı vəziyyətdə olan Ukraynaya humanitar yardımda, Fransanın neokolonializm, müstəmləkəçilik siyasətindən əziyyət çəkən xalqlara, iqlim dəyişmələrindən fəsad görən kiçik ada dövlətlərinə hərtərəfli dəstəkdədir.

Azərbaycan diplomatiyası sülhə çağırış edir, regional, qlobal təhlükəsizliyə töhfə verir, faydalı əməkdaşlıqlara vəsilə olur. Bu nüansı "Şimal-Cənub", "Şərq-Qərb", Orta Dəhliz, Cənub Qaz Dəhlizi layihələrində, müasir çağırışlara tutarlı cavab verən "yaşıl gündəlik"də açıq-aydın görə bilərik. Beynəlxalq nəqliyyat-logistika mərkəzi, tranzit ölkə kimi Azərbaycan Çindən-Avropa ölkələrinə, o cümlədən İtaliyayadək gedən yükdaşımalarının təşkilinə geniş imkanlar açmaqla etibarlı ticarət tərəfdaşlığı yaradıb. Bu addım uzaq coğrafiyaları yaxınlaşdırmaqla yanaşı, beynəlxalq siyasi, iqtisadi münasibətlərin tənzimlənməsinə, yeni dünya nizamının formalaşmasına, iqtisadiyyatların çiçəklənməsinə, turizmin inkişafına, sahibkarlıq mühitinin formalaşdırılmasına təkan verir. Eyni zamanda Cənub Qaz Dəhlizi layihəsini reallaşdırmaqla respublikamız qoca qitənin enerji təhlükəsizliyində aparıcı rol oynayır. Azərbaycan hazırda bu layihə əsasında 14 ölkəyə mavi yanacaq nəql edir ki, onun 10-u Avropa ölkəsi, o cümlədən 8-i isə Avropa İttifaqının üzvüdür. Bununla Azərbaycan boru kəməri vasitəsilə qaz təmin edən ölkələrin sırasında dünyada birinci yeri tutur. Bu baxımdan, təsadüfi deyildir ki, Avropa İttifaqı Azərbaycanı etibarlı tərəfdaş və pan-Avropa qaz təchizatçısı adlandırır.

Səhifə ➡ 3

## D-8 Media Forumu: Azərbaycanın informasiya-kommunikasiya sahəsində növbəti beynəlxalq diplomatik uğuru

Azərbaycan Vətən müharibəsində hərbi-siyasi gücü ilə yanaşı, informasiya-kommunikasiya sahəsində də diplomatik məharətini tam mənada ortaya qoya bildi. Prezident İlham Əliyevin 44 gündə 11 ölkənin 26 KİV-nə özündə beynəlxalq hüququn prinsiplərini, tarixi həqiqətləri və siyasi reallıqları əks etdirən müsahibələri bunu qəti şəkildə sübut edir. Müharibədən sonra zəfər rəmzimiz sayılan Şuşa şəhərində hər il keçirilən Qlobal Media forumları həm ölkə, iştirakçı sayına, həm də mövzu aktuallığına görə respublikamızın beynəlxalq səviyyədə informasiya-kommunikasiya sahəsində diplomatiyasının gücünü ortaya qoyur. Noyabrın 21-də keçirilən, 8 ölkədən və D-8 təşkilatının Katibliyindən 71 xarici nümayəndə olmaqla, ümumilikdə, 150-yə yaxın qonağı öz ətrafında toplayan "Dialoqun, əməkdaşlığın və regional həmrəyliyin təşviq edilməsi" mövzusunda D-8 Media Forumu da Azərbaycanın liderliyi ilə bu istiqamətdə reallaşdırılan növbəti mühüm və qlobal əhəmiyyətli təşəbbüs kimi yadda qaldı.

Media forumunun roluna diqqəti çəkən zaman mütləq şəkildə bu formatın təsisçisinin, yəni D-8-in siyasi-iqtisadi əhəmiyyətinə və Azərbaycanın təşkilata üzvlüyünün önəminə toxunmasaq, olmaz. D-8 1997-ci ildə İstanbulda yaradılan beynəlxalq təşkilatdır və fəaliyyəti dövründə inkişaf edən səkkiz müsəlman ölkəsinin iqtisadi və siyasi əməkdaşlığını gücləndirməyi qarşıya məqsəd qoyub. Türkiyə, İndoneziya, İran, Pakistan, Banqladeş, Nigeriya, Misir və Yəməndən ibarət təşkilat üzv ölkələr arasında birgə ticarət, investisiya və texnoloji əməkdaşlıq yaratmaq üçün müxtəlif proqramlar həyata keçirir, münasibətlər, əsasən, təhsil, mədəniyyət və sosial sahələr üzərindən qurulur. Eyni zamanda dövlətlər arasında iqtisadi əlaqələrin artırılması və inkişaf etməkdə olan ölkələrin dünya bazarlarında daha böyük rol oynaması üçün təşviqedici tədbirlər görülür.

Səhifə ➡ 3

# Ulu Öndərin ideyaları
## yolumuzu işıqlandıran sönməz məşəldir



Ötən əsrin 90-cı illəri, bəlkə də, dünyada yaşayan bir çox xalq üçün adi illər idisə də, bizim üçün, biz azərbaycanlılar üçün ən çətin və ən şərəfli günlər idi. Biz 70 illik əsarət zəncirini boynumuzdan öz əllərimizlə çıxarıb atmışdıq. Azərbaycanın ən qədim və ən mübariz diyarı Naxçıvanda sovetlərin əcəl zəngi çalınmışdı həmin illərdə. Xalq bir olub tankların qarşısında əliyalın çıxıb müstəqilliyini qazanmış, sərhəddinə hücum edən müasir silahlarla təmin olunan düşmənin qarşısında ov gülləsi ilə dayanıb torpağını qoruyurdu. Həmin çətin günlərdən birində Şərur şəhərinin mərkəzində yerləşən Azadlıq meydanındakı mitinqdə ilk dəfə görmüşdüm Heydər Əliyevi. İnsan selinin arasından zorla keçib irəli gedirdim Onu görmək üçün.

Meydanda yüzlərlə insan var idi. Hamının səsi bir-birinə qarışmışdı O, kürsüyə çıxana kimi. Ulu Öndər şux addımlarla meydanın ortasına gəlib kürsüdə öz yerini tutdu, əlini havaya qaldırıb hamını salamladığı anda meydana sükut çökdü. Hamı susdu, hər kəsin diqqəti Ona yönəldi. Dediyi hər cümlə alqışla qarşılanırdı. İnsanların sevincinin həddi-hüdudu yox idi. Hər kəs onu yaxından görmək, dediklərini eşitmək istəyirdi. Dahi rəhbər çıxışını bitirdikdən sonra oraya toplaşan insanlarla, Sədərəkdə gedən şiddətli döyüşlərdə iştirak etmək üçün orada olanlarla söhbət etdi. İnsanlar Ona böyük ümid bəsləyir və bütün çətinliklərdən Ulu Öndər Heydər Əliyevin köməyi ilə çıxacaqlarına inanırdılar. Bu həmin vaxtlar idi ki, Naxçıvan bir tərəfdən xain qonşularımızın hücumlarına məruz qalır, təkbaşına müqavimət göstərir, torpaqlarımız igid oğulların şücaəti, canı-qanı bahasına qorunurdu.

Digər tərəfdən isə qədim yurdumuzun blokadaya salınması ilə bağlı yaranmış çox ciddi problemlərlə mübarizə aparmalı olurdu. Buna, əslində, ölüm-dirim mübarizəsi də deyə bilərik. Nə mavi yanacaq var idi, nə işıq. Sərhədimizə amansız hücumlar edildiyi həmin illərdə çox çətin sınaqla mübarizə və ondan da betər olan aclıqla üzləşmişdi naxçıvanlılar... Bütün bunlara baxmayaraq, qazandığımız müstəqilliyi itirməməyə səy göstərir, torpağımızı qoruyur, bir addım belə geri çəkilmirdik. Dövlət xadimi Heydər Əliyevin ətrafında sıx birləşən muxtar respublika sakinləri gələcəyə böyük ümidlə baxır, bütün məsələlərin öz həllini tapacağına inanırdılar. Naxçıvan sakinləri ilə bərabər qazsız, işıqsız, soyuq, şaxtalı günlərdə çıraq işığında yaşayıb gərgin əmək sərf edərək böyük nailiyyətlərin təməlini atdı yurdumuzun dahi oğlu. Dərin zəkası, uzaqgörənliyi, tükənməz enerjisi və təhlil bacarığı görkəmli dövlət xadiminə imkan verirdi ki, ən çətin və çıxılmaz vəziyyətlərdə öz xalqı və Vətəni üçün mümkün variantın ən düzgününü seçib gərginliyi aradan qaldırsın.

### *Burada müasir Azərbaycanın təməli atıldı*

Ümummilli Liderimiz Naxçıvanda Ali Məclisin Sədri vəzifəsində çalışdığı illərdə mühüm siyasi və ideoloji amilə çevrilən tarixi qərarlar qəbul edib. O, gəlişi ilə Naxçıvana yeni nəfəs gətirdi, ağır blokada şəraitində olmasına baxmayaraq, bu qədim diyarı dirçəltməyə başladı. Təkcə muxtar respublika üçün deyil, bütün Azərbaycan üçün həyati əhəmiyyət kəsb edən, dövlət quruculuğu prosesində mayak rolunu oynayan qərarların qəbul edilməsinə nail olundu. Həmin illərdə Naxçıvanda baş verənlər ölkə ictimaiyyəti tərəfindən yaxından izlənilirdi. Baxmayaraq ki, mərkəzi hakimiyyət buradakı hadisələrə laqeydliklə yanaşırdı. Böyük dövlət xadiminin Naxçıvandakı idarəetmə uğurları isə göz qabağında idi. Və bunu görən xalqımız ölkədəki xaos və anarxiyanı aradan qaldırmaq, Azərbaycan dövlətçiliyini xilas etmək naminə Ulu Öndərin ölkə rəhbərliyinə gətirilməsini tələb etməyə başladı. Bir tərəfdən Azərbaycanın cənnəti Qarabağ düşmən tərəfindən işğal edilir, digər tərəfdən isə Gəncə şəhərində qiyam baş verir və qardaş qardaşa güllə atırdı. Bir sözlə, Azərbaycan məhv olmaq təhlükəsi ilə qarşı-qarşıya qalmışdı. Dahi rəhbər bu acı hadisələrə laqeyd də qala bilməzdi. Onun Bakıya qayıdışı xalqın sevincinə səbəb oldu. 1993-cü ilin iyununda paytaxta qayıdaraq həmin il oktyabrın 3-də keçirilən prezident seçkisində 97,6 faiz seçici fəallığı ilə Ulu Öndər səslərin 98, 8 faizini alaraq Azərbaycan Prezidenti seçildi.

### *Bir an belə doğma Naxçıvanı unutmadı*

Vətənin vəfalı oğlu sovetlər dönəmində belə Naxçıvanı daim diqqət mərkəzində saxlayırdı. SSRİ kimi nəhəng dövlətin rəhbərlərindən biri olan xalqımızın böyük oğlu Heydər Əliyev Moskvada, necə deyərlər, ucu-bucağı görünməyən bir ölkənin problemlərinin həlli ilə məşğul olsa da, bir an belə doğma Naxçıvanı unutmayıb. Azərbaycanda ilk dəfə hakimiyyətə gəldiyi 1969-cu ilin iyul ayının 14-dən sonrakı dövrdə ölkəmizin, o cümlədən Naxçıvanın inkişafı, gələcəyi ilə bağlı çox mühüm qərarlar qəbul edib. Belə ki, 1970-ci illərə qədər Naxçıvan Azərbaycanın digər bölgələrinə nisbətən xeyli geridə idi və sənaye məhsulunun artım sürətinə görə keçmiş SSRİ-nin muxtar respublikaları arasında axırıncı yerlərdə qərar tuturdu. Bu geriliyin aradan qaldırılmasında və Naxçıvanın inkişaf yoluna çıxmasında Ulu Öndərin birbaşa göstərişi və rəhbərliyi ilə hazırlanmış Azərbaycan KP MK və Azərbaycan SSR Nazirlər Sovetinin "Naxçıvan MSSR-in xalq təsərrüfatının daha da inkişaf etdirilməsi tədbirləri haqqında" 1974-cü il 8 yanvar tarixli birgə Qərarının mühüm rolu oldu. Sənəddə muxtar respublikanın sosial-iqtisadi, mədəni inkişafının təmin edilməsi üçün müvafiq orqanlar qarşısında konkret vəzifələr qoyulmuş, onların icra müddəti müəyyənləşdirilmişdi. Qərarda nəzərdə tutulmuş bütün vəzifələr vaxtında yerinə yetirilib. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev həmin dövrü dəyərləndirərək deyib: ***"Naxçıvanın inkişafı Ulu Öndər Heydər Əliyevin adı ilə sıx bağlıdır. İlk növbədə, ona görə ki, Naxçıvan Azərbaycan xalqına böyük şəxsiyyət Ulu Öndər Heydər Əliyevi bəxş etmişdir. Ulu Öndər bütün dövrlərdə Naxçıvana böyük diqqət göstərmişdir. 1970-1980-ci illərin əvvəllərində respublikanın sosial-iqtisadi inkişafı üçün çox böyük işlər görmüşdür".***

1969-1982-ci illərdə muxtar respublikanın sənaye potensialı üç dəfə yüksəlib. Dahi şəxsiyyət muxtar respublikada aparılan quruculuq-abadlıq işlərinin vəziyyəti ilə tanış olmaq üçün 1969-1982-ci illərdə 4 dəfə qədim diyarda səfərdə olub. İlk səfər 1974-cü il fevralın 22-də reallaşıb.

Naxçıvan şəhərindəki Heydər Əliyev Muzeyində saxlanılan Azərbaycan KP Naxçıvan Vilayət Komitəsinin büro iclaslarının protokollarından da aydın olur ki, daha sonra 1978-ci il oktyabrın 15-də, 1980-ci il mayın 24-də, 1982-ci il oktyabrın 2-də reallaşan səfərlərin hər birində Naxçıvanın gələcəyi üçün mühüm qərarlar qəbul edilib, gələcək perspektivə hesablanmış addımlar atılıb. Ümummilli Liderimizin təşəbbüsü və diqqəti sayəsində kompleks tədbirlər həyata keçirilib və nəticədə, 1970-1982-ci illərdə muxtar respublikanın sənaye potensialı, təxminən, üç dəfə yüksəlib. Həmin illərdə Araz çayı üzərində iri su anbarı və elektrik stansiyası, habelə 16 iri sənaye müəssisəsi tikilib istifadəyə verilib. Bütün bu geniş miqyaslı quruculuq tədbirləri hesabına Naxçıvan Muxtar Respublikasında sənaye məhsulunun ümumi həcmi 1985-ci ildə 1970-ci ilə nisbətən 4,6 dəfə artıb. Həmin dövrdə dahi rəhbər ermənilərin Naxçıvan iddialarına qarşı ciddi mübarizə aparıb. Təsadüfi deyil ki, Ulu Öndər 1987-ci ilin noyabr ayında rəhbər vəzifədən uzaqlaşdırılandan dərhal sonra Azərbaycanın ağrı-acılarla dolu dövrü başlayıb, meydanı boş görən ermənilər çirkin iddialarını daha yüksək səslə səsləndiriblər. Görkəmli dövlət xadimi Moskvada rahat yaşaya bilərdi. Ancaq o, sakitliyi və rahatlığı deyil, Vətəninin taleyini düşünürdü. Buna görə də o, Vətənə qayıtmaq istəyirdi. Naxçıvanlılar da qədim diyarın yetişdirdiyi böyük dövlət xadiminin gəlişini səbirsizliklə gözləyirdilər.

### *Naxçıvanın xilası və inkişafı Ulu Öndər Heydər Əliyevin adı ilə sıx bağlıdır*

1993-cü ildə Azərbaycan Prezidenti seçilən Ümummilli Liderimiz ölkə başçısı olduğu illərdə də Naxçıvan Muxtar Respublikasından diqqət və qayğısını əsirgəmədi. 1969-cu ildən başlanan quruculuq və inkişaf xətti Naxçıvanda fəal, yaradıcı surətdə davam etdirildi. Bu quruculuq və inkişaf konsepsiyası sonrakı illərdə özünü tam doğruldaraq bir idarəetmə modeli kimi tarixə düşdü. Həmin dövrdə 15 inzibati bina, 60 elm və təhsil müəssisəsi, o cümlədən 16 min 38 şagird yerlik 55 ümumtəhsil məktəbi, 43 mədəniyyət obyekti, 28 səhiyyə müəssisəsi, 5 idman obyekti, 24 nasos stansiyası, 135 subartezian quyusu, 34 körpü, 6 ticarət mərkəzi, əlil, məcburi köçkün, qaçqın, şəhid ailələri, təbii fəlakətdən zərərçəkənlər və digər bu kimi kateqoriyalardan olan şəxslər üçün 47 fərdi ev, 123 istehsal və xidmət obyekti tikilərək istifadəyə verildi. Bütün bu misilsiz nailiyyətlərin hamısı böyük dövlət xadimi Heydər Əliyev siyasətinin böyük uğurlarından sadəcə bir hissəsidir. Bu möhtəşəm təlim sabahkı uğurlarımızın da etibarlı qarantına çevrildi. Azərbaycanın özü kimi əbədi olan Heydər Əliyev ideyaları yolumuzu işıqlandıran sönməz məşələ çevrildi. Həmin illərdə qədim diyarda aparılan kompleks quruculuq işləri ilə yaxından tanış olmaq, bir sıra sosial, ictimai obyektlərin açılışında iştirak etmək üçün 4 dəfə Naxçıvan Muxtar Respublikasına səfər etdi. Birinci səfər 1996-cı il oktyabrın 29-da, ikincisi 1999-cu il oktyabrın 10-da, digərləri isə 2002-ci ilin iyunun 15-də və həmin il avqustun 10-da reallaşdı. Hər bir səfərdə görülən işləri yüksək qiymətləndirən dahi rəhbər 1990-93-cü illərdə burada yaşadığı günləri xatırlayırdı. Son səfərində dediyi bu sözlər ***"1990-93-cü ildə sizlə bərabər blokada şəraitində, ağır vəziyyətdə, çətin vəziyyətdə yaşadığım günlər mənim üçün ən əziz günlərdir və onları heç vaxt unutmayacağam"*** naxçıvanlıların yaddaşına əbədi yazılıb.

### *Naxçıvanın inkişafına əvəzolunmaz töhfə*

Ötən illər ərzində zaman bir daha böyük Heydər Əliyevin – o siyasət dahisinin bütün bəlalardan xilas edərək ayağa qaldırdığı Azərbaycanı əmin əllərə təslim etdiyini təsdiqlədi. Xalqına arxalanan Müzəffər Sərkərdə dünyaya qüdrətli ordusu, yenilməz siyasi-diplomatik gücü ilə meydan oxudu. Ulu Öndərimizin əsasını qoyduğu siyasətin, nurlu yolun uğurla davam etdirilməsi bizə Vətən müharibəsində böyük qələbəni bəxş etdi, Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında rəşadətli ordumuz düşmənə sarsıdıcı zərbə vurdu, torpaqlarımızın ərazi bütövlüyü bərpa olundu. Azərbaycan Prezidenti Naxçıvan Muxtar Respublikasının blokadadan azad edilməsi istiqamətində çox önəmli və tarixi bir məsələnin həllini təmin etdi. Zəngilandan Naxçıvana dəmir yolu xəttinin və avtomobil magistrallarının tikintisi muxtar respublikada transmilli nəqliyyat proqramlarının və layihələrinin reallaşdırılmasına şərait yaradacaqdır ki, bu da qədim diyarın geostrateji əhəmiyyətini daha da artırmaqla yanaşı, bir sıra mühüm məsələlərdə böyük nailiyyətlər qazanmağa şərait yaradacaqdır. Belə ki, Zəngəzur dəhlizinin açılması ilə Naxçıvan həm də bizim üçün Avropaya qapı, Türk dünyası üçün isə ümid bağına çevriləcək.

Bu isə bir daha deməyə əsas verir ki, Naxçıvan bundan sonra da inkişafı ilə yeni-yeni zirvələr fəth edəcək. Bu gün dövlət başçısının Zəngəzur dəhlizinin açılması ilə bağlı qətiyyətli mövqeyi və uzaqgörən siyasəti Azərbaycanın Avropanın və Asiyanın əsas geoiqtisadi mərkəzi kimi əhəmiyyətini artırır, regional iqtisadi şaxələndirmələrdə milli maraqlarımıza uyğun yeni yanaşmalar ortaya qoyur. Sözsüz ki, Zəngəzur dəhlizinin ən mühüm əhəmiyyəti Naxçıvan Muxtar Respublikası ilə ölkəmizin digər iqtisadi rayonları arasında birbaşa əlaqəni təmin etməsi olacaqdır. Bununla da Naxçıvan Muxtar Respublikasının iqtisadi-tranzit əhəmiyyəti daha da artacaq, yeni inkişaf istiqamətləri müəyyənləşdiriləcəkdir.

Hələ uşaq ikən ilk dəfə Onu gördüyüm o günlərdən illər keçib, mən də bu Vətənin digər bəxtəvər övladları kimi yurdumuzda, Vətənimizdə dahi rəhbərin qurub yaratdıqlarını görə-görə yaşadım, böyüdüm. Gözümüzün önündə yenidən quruldu yaşadığımız kəndlər, şəhərlər abadlaşdı, gözəlləşdi. Və tarixin ən gözəl günü olan Zəfər Gününü gördük. Çox xoşbəxtəm ki, bunlara şahidlik etməklə yanaşı, onları qələmə ala bilmək şərəfinə də nail olmuşam. Həqiqət budur ki, mənim kimi yüzlərlə insanın dahi rəhbərə olan məhəbbəti, Onun Vətənimiz üçün gördüyü işlər nə məqalələrə, nə də kitablara sığmaz, çünki O, bir əbədi dastandır. Xalqının ürəyində yer alan dastan. Min illər keçsə də, yaddaşlara iz salacaq nəsillərdən-nəsillərə yadigar qalacaq dastan.

**Ramiyə ƏKBƏROVA**

# D-8 Media Forumu: Azərbaycanın informasiya-kommunikasiya sahəsində növbəti beynəlxalq diplomatik uğuru

## Prezident İlham ƏLİYEV:

*“Azərbaycan media sahəsində bir sıra mötəbər beynəlxalq tədbirlərə ev sahibliyi edir, bu istiqamətdə daim mühüm təşəbbüslərlə çıxış edir. Biz milli media strategiyamızı beynəlxalq təcrübə ilə uzlaşdıraraq jurnalistlərin peşəkarlığının artırılmasına, faktlara əsaslanan xəbərlərin yayılmasına və media savadlılığının inkişafına xüsusi diqqət yetiririk. Eyni zamanda biz regional əməkdaşlıq vasitəsilə ortaq informasiya platformalarının yaradılmasını dəstəkləyirik.”*



*(əvvəli 1-ci səhifədə)*

Bir milyarddan çox əhalisi olan və müsəlman ölkələrinin iqtisadiyyatının 60 faizini təşkil edən D-8-in ümumi daxili məhsul istehsalı 5 trilyon dollardan çoxdur. D-8 ölkələri arasında ticarətin həcmini 2030-cu ilədək 500 milyard dollara çatdırmaq nəzərdə tutulur. Özlüyündə belə bir perspektivli təşkilata Azərbaycanın üzvlüyü Asiya, Yaxın Şərq və Avropanın nəqliyyat-logistika mərkəzlərini birləşdirən, sənaye, texnologiya, enerji və təbii sərvətlər sektorlarına ticarət və investisiyalar da daxil bazarın genişlənməsi kimi mühüm üstünlük verəcək. Eyni zamanda Azərbaycanın bütün beynəlxalq platformalarda təbliğ etdiyi Orta Dəhliz və onun başlıca seqmentinə çevriləcək Zəngəzur dəhlizinin də öz potensialını D-8 təşkilatına təqdim etmək üçün yeni imkanlar yaranacaq. Bütün bu cəhətlərin fonunda nəzərə alsaq ki, dünyada 60-a yaxın müsəlman ölkəsi var və 30 ilə yaxın müddətdə təşkilat sıralarına heç kimi qəbul etməyib, o zaman Azərbaycanın bu təşkilata üzvlüyü olduqca uğurlu diplomatik nailiyyətidir fikrini əminliklə söyləyə bilərik.

Prezident İlham Əliyev noyabrın 21-də keçirilən “Dialoqun, əməkdaşlığın və regional həmrəyliyin təşviq edilməsi” mövzusunda D-8 Media Forumunun iştirakçılarına ünvanladığı müraciətdə də respublikamızın təşkilata üzvlüyünü beynəlxalq etimadın göstəricisi kimi dəyərləndirdi. Sitat: ***“Bildiyiniz kimi, keçən il Azərbaycan Respublikası yekdilliklə D-8 təşkilatının üzvü seçilmişdir. Əlamətdar haldır ki, otuz ilə yaxın müddət ərzində fəaliyyət göstərən bu təşkilat ilk dəfə olaraq genişlənmə ilə belə qədar qərar qəbul etmişdir. Bu, ölkəmizə olan beynəlxalq etimadın göstəricisi, təşkilata üzv olan hər bir ölkə ilə möhkəm dostluq və əməkdaşlıq münasibətlərimizin, birliyimizin və həmrəyliyimizin təzahürü idi”.***

Azərbaycan D-8 ailəsinin üzvü olduğu ötən dövrdə təsisatın inkişafı ilə bağlı mühüm təşəbbüslər irəli sürüb, kreativ ideyalarla çıxış edib. Təqdirədici haldır ki, bu təşəbbüslər, ideyalar təkcə iqtisadi deyil, həm də mədəni, sosial və humanitar əməkdaşlıq sahələrində özünü göstərib. Belə ki, Azərbaycanın D-8-ə üzvlüyə qəbul edilməsindən ötən bir ilə yaxın müddətdə ölkəmizin təşəbbüsü ilə Bakı şəhərində ilk dəfə D-8 ölkələrinin QHT-lərinin görüşü təşkil olunub, D-8 Həftəsi çərçivəsində “D-8 Yüksəksəviyyəli İqlim və Şəhərsalma Dialoq”u keçirilib. Məhz bu tədbirlərin davamı olaraq D-8 Media Forumu da Azərbaycanın təsisata üzv ölkələr arasında informasiya-kommunikasiya sahəsi üzrə əməkdaşlığın daha da dərinləşdirilməsinə növbəti töhfəsi kimi dəyərləndirilə bilər.

Dezinformasiya, saxta, qərəzli və manipulyativ xəbərlər, informasiya təxribatları dövrümüzün yeni növ müharibə vasitələridir. Hazırda dünyada bütün sahələr kimi media da qloballaşır, transformasiyaya uğrayır və süni intellektin bu sahəyə təsiri hər ötən gün daha da artır. Təbii ki, bu yeniliklər, dəyişmələr fonunda sui-istifadə halları da çoxalır, dezinformasiyalar, “fake” materialların yayılma arealı genişlənir. Dövlət başçısının müraciətində də qeyd olunduğu kimi, müasir dünyada informasiya adi xəbər olmaqla məhdudlaşmır, beynəlxalq münasibətlərin, ictimai rəyin və iqtisadi inkişafın əsas hərəkətverici qüvvəsinə çevrilərək xalqlar arasında etimadın və anlayışın formalaşmasında mühüm rol oynayır. Bu baxımdan, Bakı Media Forumu çərçivəsində irəli sürülən ideyalar, regional və beynəlxalq informasiya mübadiləsi, media sahəsində əməkdaşlığın gücləndirilməsi, dezinformasiyaya qarşı mübarizə mexanizmləri, rəqəmsal mediada birgə layihələrin təşviqi kimi təşəbbüslər gələcəkdə D-8 ölkələrinin informasiya siyasətinin tərkib hissəsinə çevrilərək bu istiqamətdə öz töhfəsini verəcək. Forumda üzv dövlətlər arasında media sahəsində əməkdaşlığa dair Bakı Bəyannaməsi də imzalanıb. Müddəalara nəzər yetirdikdə aydın olur ki, bəyannamənin məqsədi daha sıx qarşılıqlı əlaqəli, məlumatlandırılmış və davamlı D-8 media məkanı formalaşdırmaq, eyni zamanda üzv ölkələr arasında sülhü, inkişafı və qarşılıqlı anlaşmanı dəstəkləməkdir.

Ümumilikdə, onu vurğulamaq olar ki, D-8 Media Forumu bir-birinə yaxın, dost ölkələrin media qurumları arasında qarşılıqlı təcrübə mübadiləsi üçün əlverişli imkanlar yaradan yeni əməkdaşlıq platforması rolunu oynayacaq. Əminliklə demək olar ki, tədbir çərçivəsində səslənən ideyalar, təkliflər və irəli sürülən birgə layihə təşəbbüsləri gələcəkdə D-8 ölkələrinin informasiya siyasətində birgə fəaliyyətə dair mühüm perspektivlər açacaq. Azərbaycanın media sahəsində uğurlu ev sahibliyi etdiyi növbəti mötəbər beynəlxalq tədbir kimi tarixə düşən D-8 Media Forumu ilə ölkəmiz bir daha milli media strategiyası yolunda qarşıya qoyduğu hədəfləri açıqladı və bu istiqamətdə inamla irəlilədiyini göstərdi. Prezident İlham Əliyevin dediyi kimi: ***“Azərbaycan media sahəsində bir sıra mötəbər beynəlxalq tədbirlərə ev sahibliyi edir, bu istiqamətdə daim mühüm təşəbbüslərlə çıxış edir. Biz milli media strategiyamızı beynəlxalq təcrübə ilə uzlaşdıraraq jurnalistlərin peşəkarlığının artırılmasına, faktlara əsaslanan xəbərlərin yayılmasına və media savadlılığının inkişafına xüsusi diqqət yetiririk. Eyni zamanda biz regional əməkdaşlıq vasitəsilə ortaq informasiya platformalarının yaradılmasını dəstəkləyirik”.***

# Dünyanı fəth edən diplomatiya, qitələri birləşdirən dövlət – Azərbaycan

*(əvvəli 1-ci səhifədə)*

Respublikamızın irəli sürdüyü “yaşıl enerji” gündəliyi də regional, qlobal təhlükəsizlik və faydalı əməkdaşlıq prinsiplərinə əsaslanır. Bu xüsusda ölkə başçısının 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq olunan “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”i diqqətə çəkmək olar ki, bu sənəddə “yaşıl enerji”yə keçid xüsusilə diqqət mərkəzindədir. Sosial-iqtisadi inkişafa dair beş Milli Prioritetlər sırasında yer alan “təmiz ətraf mühit və “yaşıl artım” ölkəsi” prioriteti üzrə ötən dövrdə bir sıra təşəbbüslər irəli sürülüb, layihələrə imza atılıb. Şərqi Zəngəzur, Qarabağ və Naxçıvanın “yaşıl enerji zona”ları elan edilməsi və bu istiqamətdə görülən işlər sözügedən prioritetin icrası baxımından xüsusi əhəmiyyət daşıyır.

Onu da vurğulamaq lazımdır ki, Azərbaycanın “yaşıl enerji”yə dair siyasəti təkcə milli deyil, həm də ümumbəşəri xarakter daşıyır, özündə beynəlxalq prioritet və məqsədlər ehtiva edir, sağlam dünya naminə birgə fəaliyyətə çağırış missiyasını uğurla yerinə yetirir. Bu xüsusda 2022-ci il dekabrın 17-də Buxarestdə imzalanan “Azərbaycan, Gürcüstan, Macarıstan və Rumıniya arasında “yaşıl enerji”nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş” də əsas istiqamətlər müəyyənləşdirir. Bu saziş Avropanı “yaşıl enerji” ilə təmin edən əsas kanal kimi Qara dənizin dibi ilə 1100 kilometr uzunluğunda sualtı kabelin çəkilməsini nəzərdə tutur ki, bununla da Azərbaycan Avropaya “yaşıl enerji” körpüsü salmağı hədəfləyib. Sözügedən nəhəng layihə Azərbaycanla Avropa ölkələrinin əməkdaşlığının gücləndirilməsi baxımından da olduqca önəmlidir və tərəflərin müasir çağırışlara əsaslanan məqsədlərinə uyğundur. Ümumilikdə, imzalanmış bütün müqavilələrə və sərmayə öhdəliklərinə əsasən respublikamız 2030-cu ilədək 6,5 giqavat həcmində bərpa olunan enerji gücünə malik olacaq. Bu da Azərbaycanın ümumi enerji istehsalının 35 faizdən çoxunu təşkil edəcək.

Azərbaycan diplomatiyası dünyada siyasi nüfuzu ilə seçilir, ölkəmizə strateji müttəfiq, strateji tərəfdaş imici qazandırır. Respublikamız hazırda 3 ölkə – Türkiyə, Özbəkistan və Rusiya ilə strateji müttəfiq, Çin ilə hərtərəfli strateji tərəfdaş, Pakistan, İtaliya, İsrail, Gürcüstan, İran, Qazaxıstan, Çexiya, Birləşmiş Krallıq və Rumıniya kimi ölkələrlə etibarlı ticarət tərəfdaşıdır. Azərbaycan Birləşmiş Millətlər Təşkilatı (BMT), Qoşulmama Hərəkatı, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT), GUAM, MDB, TDT kimi beynəlxalq platformalarla faydalı əməkdaşlığa, siyasi, iqtisadi, mədəni dialoqa malikdir. Prezident İlham Əliyevin dünya səviyyəli sammitlərə, konfranslara, forumlara fəxri qonaq qismində dəvət alması respublikamızın mövqeyinə, ortaya qoyulan siyasi qətiyyətə etibardan, etimaddan, son illərdə formalaşan “regional lider və qlobal tərəfdaş” modelinin təsdiqindən xəbər verir.

Bəli, Azərbaycanın 32 illik müasir diplomatiya tarixinin son 5 ili uğurlar baxımından xüsusi vurğu gərəkdirir. Bu diplomatiya 44 gündə Böyük Zəfər qazanan, Avropa ilə Asiya arasında ticarət körpüsü yaradan, Avropanın enerji təhlükəsizliyini təmin edən, Avrasiyanın nəqliyyat xəritəsini formalaşdıran, Cənubi Qafqazdan okeanın o tayına gedib çıxan, Ağ evi fəth edərək bölgəyə davamlı sülhü gətirən, aparıcı iqtisadiyyata malik Çinlə hərtərəfli strateji tərəfdaşlığa imza atan, ABŞ kimi dünya nəhəngi ilə strateji tərəfdaşlıq yoluna qədəm qoyan siyasi güc və qüdrətin təcəssümüdür. Bütün bu nailiyyətlərin əsasında isə, təbii ki, Ulu Öndər ideyalarının yaşadıcısı, qətiyyətli siyasi lider, görkəmli dövlət xadimi İlham Əliyev və onun yaratdığı xarici siyasət doktrinası dayanır. Əminliklə demək olar ki, dünyanı fəth edən diplomatiya, qitələri birləşdirən dövlət modeli Azərbaycan üçün yeni üfüqlərin kəşfinə yol açmaqla onu daha böyük, misilsiz siyasi, iqtisadi qələbələrə aparmaqda davam edəcək.

**Nail ƏSGƏROV**

# Türk Dövlətləri Təşkilatına üzv ölkələrin QHT-lərinin həmrəylik forumu Naxçıvanda davam edib




2025-ci il noyabrın 25-də Türk Dövlətləri Təşkilatına üzv ölkələrin QHT-lərinin həmrəylik forumu Naxçıvan şəhərində davam edib. Salamlama nitqi ilə çıxış edən Azərbaycan Respublikasının QHT-lərə Dövlət Dəstəyi Agentliyinin icraçı direktoru Aygün Əliyeva bildirib ki, son illər türk dövlətləri ilə birgə layihələr silsilə xarakter almaqdadır: "Son 3 il ərzində biz Özbəkistan, Türkiyə, Şimali Kipr Türk Respublikası və digər qardaş türk dövlətlərində fəaliyyət göstərən QHT-lərlə və tərəfdaş qurumlarla bir sıra vacib layihələr həyata keçirmişik. Bunlara Azərbaycan-Türkiyə, Azərbaycan-Özbəkistan, Özbəkistan-Azərbaycan formatlarında baş tutan QHT-lərin əməkdaşlıq forumlarını, COP29 çərçivəsində Bakıda keçirilən "Türk Dövlətlərinin Vətəndaş Cəmiyyəti Forumu"nu misal gətirə bilərik. Dünən isə ilk dəfə Azərbaycan-Qazaxıstan QHT-lərinin I Əməkdaşlıq Forumu baş tutdu. Əminəm ki, bu formatda ikinci forumu tezliklə Qazaxıstanda da reallaşdıra biləcəyik".

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Ceyhun Cəlilov bildirib ki, 2009-cu ildə "Naxçıvan Sazişi"nin imzalandığı şəhərdə Türk Dövlətləri Təşkilatına üzv ölkələrin QHT-lərinin həmrəylik forumunun keçirilməsi rəmzi məna daşıyır: "Naxçıvanın vətəndaş cəmiyyəti təmsilçiləri də türk dövlətləri ilə əməkdaşlığın genişləndirilməsində xüsusilə maraqlıdır. Muxtar respublikanın QHT-ləri regional təşəbbüslərə qoşulmağa, ortaq layihələrdə iştirak etməyə və Türk dünyasının birliyinə öz töhfələrini verməyə böyük həvəs göstərirlər". Ceyhun Cəlilov onu da vurğulayıb ki, Zəngəzur dəhlizinin Naxçıvan hissəsində avtomobil yolu, dəmir yolu, enerji və kommunikasiya xətlərinin tikintisi üzrə hazırlıq işləri sürətləndirilib



və artıq son mərhələyə keçilib: "Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Naxçıvana göstərdiyi ardıcıl diqqət və qayğı bu qədim diyarın inkişafını sürətləndirən başlıca amildir. Məhz bu diqqətin nəticəsi olaraq Naxçıvan bu gün təkcə region səviyyəsində deyil, bütövlükdə, türk coğrafiyasında yeni inkişaf modelinin nümunəsinə çevrilir".

Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının QHT-lərlə iş və kommunikasiya şöbəsinin QHT-lərlə iş sektorunun müdiri Tural Əliyev qeyd edib ki, bu gün qədim Naxçıvan torpağında Türk Dövlətləri Təşkilatına üzv ölkələrin QHT-ləri ilk dəfə vahid platformaya çıxır: "Bu bütün Türk dünyasının fərəhli, tarixi günüdür, böyük xoşbəxtlikdir! Biz ümumi işimizlə elə etməliyik ki, qarşıdakı dövrdə Azərbaycan, Türkiyə, Özbəkistan, Qazaxıstan, Qırğızıstan, Türkmənistan, Macarıstan və Şimali Kipr Türk Respublikası arasında tarix, mədəniyyət, ekologiya, iqlim siyasəti və digər sahələrdə QHT-lər üçün ikitərəfli, həm də çoxtərəfli əsasda qrant müsabiqələri geniş vüsət alsın. Azərbaycan tərəfi olaraq biz bu istiqamətdə həmkarlarımızla işçi danışıqlarına günü bu gün başlamağa, qısa müddətdə müsabiqələri təşkil etməyə, təşəbbüsləri dəyərləndirməyə hazırıq". T.Əliyev Bakıda başlanan prosesin davamlı olacağına inandığını bildirib: "İlk dəfə baş tutan Türk Dövlətləri Təşkilatına üzv ölkələrin QHT-lərinin həmrəylik forumunun hər il təşkilata sədrlik edən dövlətin təşkilatçılığı ilə keçirilməsini, davamlı olmasını arzu edirik".

Daha sonra forum panel müzakirələrlə davam edib.

# Ümummilli Lider Heydər Əliyevin abidəsi ziyarət edilib



Noyabrın 27-də Azərbaycan Respublikası Hesablama Palatasının sədri Vüqar Gülməmmədov Naxçıvan Muxtar Respublikasına səfər edib.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Ceyhun Cəlilov, Azərbaycan Respublikası Hesablama Palatasının sədri Vüqar Gülməmmədov və Milli Məclisin deputatı, İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov Ümummilli Lider Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında ucalan abidəsini ziyarət edib, abidə önünə gül dəstələri düzüb, ehtiramlarını ifadə ediblər.



# Naxçıvan Muxtar Respublikasında sosial-iqtisadi layihələrin gedişatı təhlil edilib



Noyabrın 27-də Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin təşkilatçılığı ilə "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı" çərçivəsində görülmüş işlər və gələcək dövrdə nəzərdə tutulan fəaliyyətlə bağlı müzakirə aparılıb.

Naxçıvan Regional "ASAN xidmət" mərkəzində keçirilən tədbirdə Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Ceyhun Cəlilov, Azərbaycan Respublikası Hesablama Palatasının sədri Vüqar Gülməmmədov, Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov və Dövlət Proqramı üzrə əsas icraçı orqanların rəhbərləri iştirak ediblər.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Ceyhun Cəlilov tərəfindən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Naxçıvan Muxtar Respublikasının inkişafına xüsusi qayğısından bəhs edilib və müvafiq Sərəncamla təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın əsas məqsədləri diqqətə çatdırılıb. Bildirilib ki, Dövlət Proqramının məqsədləri davamlı iqtisadi artımın təmin edilməsi və vətəndaşların həyat səviyyəsinin yaxşılaşdırılması sayəsində Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının sürətləndirilməsi və ölkə iqtisadiyyatına tam inteqrasiyasının təmin edilməsidir.

Azərbaycan Respublikası Hesablama Palatasının sədri Vüqar Gülməmmədov Azərbaycanda icrası davam etdirilən iki ən böyük strateji proqramdan biri olan "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın ötən 2 il 6 aylıq dövr üçün icra vəziyyəti ilə bağlı aparılan monitorinqin nəticələrindən söz açıb. Bildirilib ki, qeyd olunan dövrdə Dövlət Proqramının icrası məqsədilə 57,1 milyon manat xərclənib.



Vüqar Gülməmmədov Dövlət Proqramının icrası ilə bağlı aparılmış təhlillər haqqında danışıb, Dövlət Proqramının tərtibi və icrası ilə bağlı məlumat verib. Proqramın həyata keçirilməsi ilə bağlı tövsiyələrini səsləndirən Vüqar Gülməmmədov proqramda iqtisadi istiqamətli tədbirlərin icrasına xüsusi önəm verilməsinin vacibliyini vurğulayıb.



Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov çıxışında qeyd edib ki, muxtar respublika iqtisadiyyatı ölkə başçısının rəhbərliyi ilə aparılmış işlər nəticəsində yeni inkişaf mərhələsinə qədəm qoyur. Azərbaycan Respublikasının Milli Məclisində müzakirə olunan bir sıra qanunvericilik aktlarının layihələrinə əsasən Naxçıvan Muxtar Respublikasının müvafiq rezidentləri 2026-cı il yanvarın 1-dən etibarən 10 il müddətinə gəlir, əmlak, torpaq və sadələşdirilmiş vergilərdən, eləcə də gömrük rüsumlarından azad edilməsi və sosial sığorta ödənişlərinin subsidiyalaşdırılması nəzərdə tutulur.

Azər Əmiraslanov yeni güzəştlər zərfinin Naxçıvanda sahibkarlığın inkişafına əhəmiyyətli dərəcədə təkan verəcəyini diqqətə çatdırıb. Bildirilib ki, regionların sosial-iqtisadi inkişafı ölkəmizdə həyata keçirilən dövlət siyasətinin əsas prioritetidir. Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafını şərtləndirən Dövlət Proqramı isə ölkə başçısının Naxçıvanın hərtərəfli və davamlı inkişafına ayırdığı xüsusi diqqətin daha bir ifadəsidir. Dövlət Proqramı Naxçıvanın təkcə Azərbaycanın tərkib hissəsi kimi yox, həm də postmüharibə dövründə strateji coğrafi bölgə kimi daha da inkişafını nəzərdə tutur. Zəngəzur dəhlizi və nəticədə, Orta Dəhlizin bir parçası olmaqla Naxçıvanın logistik və tranzit imkanları daha da genişlənəcək. Bu baxımdan, Dövlət Proqramının icrası üzrə işlər daha kompleks və sürətli aparılmalı, Naxçıvan yeni dövrə tam hazır olmalıdır.

Tədbirdə Dövlət Proqramının icrasının səmərəliyinin daha da artırılması yönündə müzakirələr aparılıb, icra prosesində müşahidə olunan əsas çətinliklər barədə suallar cavablandırılıb.

Sonda Azərbaycan Respublikası Hesablama Palatasının sədri Vüqar Gülməmmədov Proqramlılıq İnstitutu üzrə bir sıra tədbirlərin yenidən nəzərdən keçirilərək real tələbata uyğunlaşdırılması, müvafiq qaydada optimallaşdırılmanın aparılması və fəaliyyət göstəricilərinin müəyyənləşdirilməsinə dair tövsiyələrini irəli sürüb.

# Elm və təhsil naziri Naxçıvana səfər edib



Noyabrın 28-də Azərbaycan Respublikasının elm və təhsil naziri Emin Əmrullayev Naxçıvan Muxtar Respublikasına səfər edib.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Ceyhun Cəlilov və Azərbaycan Respublikasının elm və təhsil naziri Emin Əmrullayev Ümummilli Lider Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında ucalan abidəsini ziyarət edib, abidə önünə gül dəstələri düzüb, Ulu Öndərin xatirəsini ehtiramla yad ediblər.



# Naxçıvanda "İnteraktiv təhsil yardımı" layihəsinin təqdimatı keçirilib



Noyabrın 28-də Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi ilə Çin Xalq Respublikasının Ticarət Nazirliyi arasında imzalanmış Naxçıvan Muxtar Respublikasına "İnteraktiv təhsil yardımı" layihəsinin təqdimatı və təhvil-təslim mərasimi keçirilib.

Tədbirdə Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Ceyhun Cəlilov, Azərbaycan Respublikasının elm və təhsil naziri Emin Əmrullayev, Çin Xalq Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Lu Mey və Naxçıvan Muxtar Respublikasının təhsil naziri Elxan Nəcəfov iştirak ediblər.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Ceyhun Cəlilov dövlət başçısının rəhbərliyi və xüsusi qayğısı ilə ölkəmizdə təhsilin hərtərəfli inkişafı istiqamətində genişmiqyaslı işlərin aparıldığını diqqətə çatdırıb, bu işlərin Naxçıvan Muxtar Respublikasında da uğurla icra olunduğunu vurğulayıb. Səlahiyyətli nümayəndə qeyd edib ki, "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda təhsilin inkişafı əsas prioritet istiqamətlərdən biri kimi müəyyənləşdirilib və bu sahədə çoxsaylı layihələr icra olunur.

Ceyhun Cəlilov Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında inkişaf edən əməkdaşlıq çərçivəsində reallaşdırılan layihənin muxtar respublikanın təhsil müəssisələrində interaktiv tədrisin təşkili və təhsilalanların bacarıqlarının artırılmasında mühüm rol oynayacağına əminliyini bildirib, layihənin icrasında əməyi keçən hər kəsə təşəkkür edib.

Azərbaycan Respublikasının elm və təhsil naziri Emin Əmrullayev Azərbaycan-Çin əlaqələrinin inkişafı fonunda elm və təhsil sahəsində də əlaqələrin dərinləşdiyini vurğulayıb. Prezident cənab İlham Əliyevin Çin Xalq Respublikasına sonuncu səfərini xatırladan nazir bildirib ki, səfər çərçivəsində digər istiqamətlərlə yanaşı, elm və texnologiya sahələrində əməkdaşlıq haqqında protokol imzalanıb. Bu ələqələrin tərkib hissəsi olaraq "İnteraktiv təhsil yardımı" layihəsinin icra olunması ölkəmizdə bu sahədə qabaqcıllar sırasında olan Naxçıvan Muxtar Respublikasında təhsilin innovativ əsasda daha intensiv inkişafına şərait yaradacaq.

Çin Xalq Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Lu Mey bildirib ki, son illər iki ölkə liderlərinin qayğısı və strateji rəhbərliyi sayəsində Çin-Azərbaycan münasibətləri sürətlə inkişaf edir. Bu il Prezident cənab İlham Əliyevin Çinə iki rəsmi səfəri zamanı dövlət başçıları əlaqələrin "Hərtərəfli Strateji Tərəfdaşlıq" səviyyəsinə yüksəldiyini elan ediblər.



Vurğulanıb ki, "İnteraktiv təhsil yardımı" layihəsi Çin hökumətinin "Azərbaycan 2020: gələcəyə baxış" inkişaf strategiyasına və Elm və Təhsil Nazirliyinin rəqəmsal transformasiya planlarına dəstəyini göstərir. 2019-cu il hökumətlərarası razılaşmasından sonra hər iki tərəfin xüsusi diqqətində olan layihə bu gün uğurla tamamlanır.



Səfir Lu Mey Çin tərəfinin Naxçıvan Muxtar Respublikası ilə təhsil və rəqəmsal texnologiyalar sahəsində regional əməkdaşlığı bundan sonra da dəstəkləyəcəyini bildirib və layihənin uğurlu nəticələr verəcəyinə əminliyini ifadə edib.

Sonra "İnteraktiv təhsil yardımı" layihəsi barədə ümumi məlumat verilib. Qeyd edilib ki, layihə çərçivəsində Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyində data mərkəzi və idarəetmə otağı yaradılıb, nazirliyə tabe müəssisələrdə isə müvafiq texniki infrastruktur qurulmaqla vahid elektron platforma istifadəyə verilib. Data mərkəzi 4 hissədən ibarət olmaqla, 38 serverdən, soyutma və idarəetmə sistemindən ibarətdir. İnteraktiv qoşulmanın daha keyfiyyətli və operativ təşkili məqsədilə STEAM Mərkəzi və təhsil müəssisələrinin hər birində 2 smart lövhə quraşdırılıb, 2300 planşet şagirdlərin istifadəsinə verilib.

Tədbirdə nazirliyin idarəetmə otağı və STEAM Mərkəzinin imkanları nümayiş etdirilib, sistemə qoşulan təhsil müəssisələri arasında bağlantının monitorinqi aparılıb. Bildirilib ki, sistemə real vaxt rejimində və sonradan qoşulmaqla STEAM Mərkəzində keçirilən dərsləri izləmək mümkündür. Pilot layihə olaraq hazırda 24 təhsil müəssisəsi yeni elektron təhsil platformasına inteqrasiya olunub. Növbəti mərhələdə muxtar respublikanın digər təhsil müəssisələrinin də bu sistemə qoşulması nəzərdə tutulur.



Tədbirdə Azərbaycan Respublikası Hökuməti ilə Çin Xalq Respublikası Hökuməti arasında Naxçıvan Muxtar Respublikasına "İnteraktiv təhsil yardımı" layihəsinə dair təhvil-təslim aktı imzalanıb. Aktı Çin Xalq Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Lu Mey və Naxçıvan Muxtar Respublikasının təhsil naziri Elxan Nəcəfov imzalayıblar.

Sonda xatirə fotosu çəkdirilib.

# *"Elmin zamanla sınanmış dəyəri"* adlı respublika elmi konfransı olub

Noyabrın 27-də Naxçıvan Dövlət Universitetində akademik Yusif Məmmədəliyevin 120 illiyinə həsr olunmuş "Elmin zamanla sınanmış dəyəri" adlı respublika elmi konfransı keçirilib.

Konfrans iştirakçıları əvvəlcə Təbiətşünaslıq və kənd təsərrüfatı fakültəsində təşkil edilmiş "Akademik Yusif Məmmədəliyev" adlı guşə və Naxçıvan Dövlət Universitetində İnnovasiya Mərkəzində açılan "Akademik Yusif Məmmədəliyev – 120" adlı sərgi ilə tanış olublar.



Konfransın açılış mərasimində əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni səsləndirilib.

Daha sonra Naxçıvan Dövlət Universiteti televiziyası tərəfindən hazırlanmış "Akademik Yusif Məmmədəliyev – 120" adlı videoçarx nümayiş olunub.

Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev Azərbaycan Respublikası Prezidentinin imzaladığı müvafiq Sərəncama uyğun olaraq görkəmli kimyaçı alim Yusif Məmmədəliyevin 120 illik yubileyinin respublikamızın bütün elm-təhsil müəssisələrində qeyd olunduğunu, eləcə də Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin, həmçinin Naxçıvan Dövlət Universitetinin hazırladığı müvafiq Tədbirlər Planına uyğun olaraq akademik Yusif Məmmədəliyevin elmi irsinin öyrənilməsi və təbliği istiqamətində müxtəlif tədbirlərin icra olunduğunu qeyd edib.

AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev "Elmin yüksəlişinə aparan yol: Yusif Məmmədəliyev və AMEA" mövzusundakı çıxışı zamanı bildirib ki, Azərbaycan elmində, ictimai-siyasi həyatında çox fəal olan Yusif Məmmədəliyevin adı yüksək qiymətləndirilir. Akademik İsmayıl Hacıyev qeyd edib ki, Yusif Məmmədəliyev bütün ömrünü, həyatını neft və qazın öyrənilməsinə həsr edib. Yaşadığı dövr üçün apardığı tədqiqatlar birmənalı olaraq SSRİ-də və SSRİ-dən kənarda dəyərləndirilib.

Sonra ETN Təbii Ehtiyatlar İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Tofiq Əliyev, Naxçıvan Dövlət Universitetinin Memarlıq və mühəndislik fakültəsinin dekanı, professor Cavanşir Zeynalov, Mingəçevir Dövlət Universitetinin dosenti, kimya üzrə fəlsəfə doktoru Adil Aslanov, Naxçıvan Dövlət Universitetinin YAP ərazi təşkilatının sədri, dosent Bəhruz Məmmədov, ETN Təbii Ehtiyatlar İnstitutunun Filiz və qeyri-filiz yataqları laboratoriyasının müdiri, dosent Aliyə Rzayeva çıxış ediblər.

Sonra akademik Yusif Məmmədəliyevin anadan olmasının 120 illiyinə həsr olunmuş gənc alimlər arasında keçirilən "Yusif Məmmədəliyev – Azərbaycan elminin zirvəsi" mövzusunda "Ən yaxşı məqalə" müsabiqəsinin qalibləri mükafatlandırılıb.

Konfrans işini 2 salon, 4 panel üzrə, üz-üzə və onlayn formatda bölmə iclasları ilə davam etdirib.

# Türk Dövlətləri Təşkilatının regional güc arxitekturasında Naxçıvanın strateji yeri

Baş redaktordan
Sara ƏZİMOVA

Türk Dövlətləri Təşkilatının (TDT) formalaşması və inkişafı prosesində Naxçıvanın rolu zamanın siyasi reallıqları ilə üst-üstə düşən, regionda yeni əməkdaşlıq modelinin əsasını qoyan mühüm tarixi faktor kimi qiymətləndirilir. 2009-cu il oktyabrın 3-də Naxçıvanda qəbul edilmiş Naxçıvan Bəyannaməsi təkcə türkdilli dövlətlərin siyasi həmrəyliyinin sənədləşmiş ifadəsi deyil, eyni zamanda müasir türk inteqrasiya sisteminin hüquqi-siyasi təməlini təşkil edən strateji konsepsiyadır. Aradan keçən 16 il ərzində bu sənədin əhəmiyyəti daha da artıb, TDT-nin regional və qlobal münasibətlər sistemində nüfuzunun yüksəlməsi üçün institusional baza rolunu oynayıb.

Təşkilat bu gün qlobal siyasi dinamikanın tələblərinə uyğun olaraq fəaliyyət dairəsini genişləndirib, yalnız mədəni-humanitar platforma olmaqdan çıxaraq təhlükəsizlik, enerji, nəqliyyat-logistika, texnologiya, qida təhlükəsizliyi, kosmik tədqiqatlar və strateji ticarət xətləri kimi sahələrdə də vahid koordinasiya mərkəzinə çevrilib. Prezident İlham Əliyevin TDT-ni “Bizim ailəmiz” kimi səciyyələndirməsi bu quruma verilən strateji-siyasi dəyərin mahiyyətini ifadə edir və Azərbaycanın təşkilatın möhkəmlənməsi istiqamətində liderlik xəttini təsdiqləyir.

Məhz bu ideoloji və siyasi xəttin davamı olaraq Türk Dövlətləri Təşkilatına üzv ölkələrin qeyri-hökumət təşkilatlarının həmrəylik platformasının ilk dəfə Naxçıvanda təsis edilməsi, institusional dərinləşmənin, ictimai diplomatiyanın və yumşaq güc mexanizmlərinin yeni mərhələyə keçdiyini göstərir. Bakı proqramından sonra muxtar respublikada geniş tərkibdə keçirilən forum yalnız vətəndaş cəmiyyəti institutlarının koordinasiyası deyil, TDT məkanında təhlükəsiz sosial-siyasi mühitin formalaşmasına yönəlmiş ümumi strateji hədəflərin reallaşdırılması baxımından mühüm əhəmiyyət daşıyır. Forumda çıxışı zamanı Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Ceyhun Cəlilov 2009-cu ildə “Naxçıvan Sazişi”nin imzalandığı şəhərdə Türk Dövlətləri Təşkilatına üzv ölkələrin QHT-lərinin həmrəylik forumunun keçirilməsinin rəmzi məna daşıdığını vurğulayıb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Naxçıvana göstərdiyi ardıcıl diqqət və qay-



ğının bu qədim diyarın inkişafını sürətləndirən başlıca amil olduğunu nəzərə çatdıran səlahiyyətli nümayəndə bildirib ki, məhz bu diqqətin nəticəsi olaraq Naxçıvan bu gün təkcə region səviyyəsində deyil, bütövlükdə türk coğrafiyasında yeni inkişaf modelinin nümunəsinə çevrilir.

Hazırda türk dövlətləri arasında əməkdaşlıq artan qlobal rəqabət fonunda yeni geostrateji xəttin konturlarını müəyyənləşdirir. Azərbaycanın 2020-ci ildə qazandığı tarixi zəfərlə regionda yaranan yeni reallıqlar fonunda Türk Dövlətləri Təşkilatının fəaliyyətində də yeni mərhələnin əsası qoyulub, təşkilata üzv ölkələr arasında əməkdaşlığın mühüm perspektivləri formalaşıb. Bu baxımdan, ötən il iyulun 6-da Şuşada imzalanan “Türk Dövlətləri Təşkilatının qeyri-rəsmi Zirvə görüşünün Qarabağ Bəyannaməsi” təşkilatın yeni çağırışlara uyğun çıxış etməsi, beynəlxalq nüfuza malik olması üçün özündə yeni məzmun daşıyan mühüm yol xəritəsi rolunu oynayır. 44 günlük Vətən müharibəsindən sonra regionda yaranmış yeni siyasi nizam və bunun fonunda güclənən türk inteqrasiya modeli Naxçıvanın rolunu daha da aktuallaşdırır. Zəngəzur dəhlizinin açılması perspektivi Mərkəzi Asiyanı Cənubi Qafqaz və Avropa ilə birləşdirəcək, türk dövlətləri arasında iqtisadi, nəqliyyat və enerji əlaqələrinin vahid struktur altında koordinasiyasını təmin edəcək. Bu kontekstdə TDT QHT-lərinin Naxçıvanda bir araya gəlməsi yalnız simvolik akt deyil, gələcək beynəlxalq təşkilati mexanizmlərin formalaşmasına yönəlmiş praqmatik addımdır. Prezident İlham Əliyev Türk Dövlətləri Təşkilatına üzv ölkələrin qeyri-hökumət təşkilatlarının həmrəylik forumunun iştirakçılarına müraciətində də TDT-nin nüfuzunun gücləndirilməsi istiqamətində qarşıya qoyulan hədəflərə toxundu, Zəngəzur dəhlizinin türk dövlətləri arasında əməkdaşlığın inkişafında və möhkəmlənməsində mühüm rol oynayacağına əminliyini ifadə etdi: ***“Bu gün Türk dünyası özünün yüksəliş dövrünü yaşayır. Beş il əvvəl qazandığımız Qarabağ Zəfəri türk xalqlarının ümumi sevinci və qürur mənbəyidir. İnanıram ki, hazırda yenidən qurulan Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları, açılacaq Zəngəzur dəhlizi türk dövlətləri arasında əməkdaşlığın inkişafında və möhkəmlənməsində mühüm rol oynayacaqdır”.***

Forumda səsləndirilən ideyalar, TDT-yə üzv və müşahidəçi ölkələrin nümayəndələrinin təqdim etdiyi əməkdaşlıq xəritəsi və yeni institusional təşəbbüslər təşkilatın regional güc mərkəzinə transformasiyasının siyasi təzahürü kimi çıxış edir. Prezident İlham Əliyevin forum iştirakçılarına müraciətində diqqətə çatdırdığı kimi, türk dövlətlərinin artan potensialı qarşıya daha iddialı məqsədlər qoyur və effektiv mexanizmlərin yaradılmasını tələb edir. TDT QHT-lərinin platforması məhz bu tələbə cavab olaraq qərarlaşan ilk institusional modeldir və təşkilatın gələcək çoxşaxəli əməkdaşlıq strukturunda əsas istiqamətlərdən birini formalaşdıracaq.

Qəbələdə keçirilən TDT Dövlət Başçıları Şurasının 12-ci Zirvə görüşündə irəli sürülən strateji yanaşmalar da bu prosesin məntiqi davamı kimi çıxış edir. TDT-nin hərbi-siyasi, iqtisadi və texnoloji koordinasiya mərkəzinə çevrilməsi prosesi sürətlənir, türk dövlətlərinin vahid geosiyasi mövqeyi daha aydın şəkildə konturlanır. Bu çərçivədə Naxçıvanda keçirilən QHT forumu yalnız ictimai diplomatiya tədbiri deyil, vahid türk gələcəyinin konseptual arxitekturasının formalaşmasında mühüm mərhələ kimi dəyərləndirilir.

Beləliklə, 2009-cu ildə qəbul olunan Naxçıvan Bəyannaməsi ilə əsası qoyulan ideoloji təməlin 16 il sonra yenidən elə həmin məkanda institusional aspektdə möhkəmləndirilməsi türk inteqrasiyasının davamlı xarakterini sübut edir. Göründüyü kimi, Naxçıvan keçmişdə olduğu kimi, bu gün də türk siyasi sistemində strateji əlaqələndirmə mərkəzi funksiyasını qoruyub saxlayır və gələcək regional əməkdaşlıq modelinin formalaşdırılmasında aparıcı rol oynayır.

*16 il əvvəl*

***Qədim türk torpağı Naxçıvan uzaq və yaxın tarixdə türk siyasi-iqtisadi, mədəni aləminin qovşağı olaraq hərtərəfli münasibətlərin tənzimlənməsinə, sivilizasiyalararası dialoqa mühüm töhfələr verib. Türk dünyası liderlərinin irəli sürdüyü ideyalar bu torpaqda kəsişib, bütünləşib, vahidləşib, təşəbbüslər burada gerçəkləşib. 16 il bundan öncə, daha dəqiq desək, 2009-cu il oktyabrın 3-də “Türkün qapısı” Naxçıvanda keçirilən, türk dövlətlərini vahid amal uğrunda bir araya gətirən Türkdilli Ölkələrin Dövlət Başçılarının IX Zirvə Toplantısı da məhz tarix, dil və mədəniyyət yaxınlığına, dostluq, bərabərlik və qarşılıqlı faydaya, bütün sahələrdə mövcud olan yüksəksəviyyəli əlaqələrin və əməkdaşlığın əhəmiyyətini artırmağa hesablanmışdı. Təsadüfi deyil ki, həmin görüş zamanı Türk Dövlətləri Təşkilatının (TDT) qurucu razılaşması kimi qəbul edilən Naxçıvan Bəyannaməsi zaman ötdükcə qloballaşan dünya fonunda mühümlüyünü, əhəmiyyətini artırır, vaxtında atılan bu mütərəqqi addım əlaqələrin yüksələn xətlə inkişafına yol açdığı üçün daim liderlər tərəfindən yüksək qiymətləndirilir.***

# Türk dünyası yenidən Naxçıvanda həmrəy, həmfikir oldu

Naxçıvanda əsası qoyulan Türk Dövlətləri Təşkilatı 16 illik şərəfli inkişaf yolu keçərək artıq regional və beynəlxalq əhəmiyyətli nüfuzlu təşkilata, eyni zamanda da siyasi, iqtisadi münasibətləri tənzimləyən əvəzolunmaz platformaya çevrilib. İdeyası türkdilli xalqlar arasında əsrlərboyu formalaşan siyasi, mədəni və hərbi həmrəyliyə söykənən TDT Azərbaycan, Türkiyə, Qazaxıstan və Qırğızıstan tərəfindən qurulub. Özbəkistan (2019) əsas, Macarıstan (2018), Türkmənistan (2021) və Şimali Kipr Türk Respublikası (2022) isə müşahidəçi üzv qəbul olunublar. İki il bundan öncə, 2023-cü ildə İqtisadi Əməkdaşlıq Təşkilatına TDT-nin müşahidəçi statusu verilib. Yarandığı ilk dövrlərdən fərqli olaraq bu gün artıq qurumun gündəliyində təkcə mədəni və humanitar məsələlər deyil, strateji təhlükəsizlik, enerji siyasəti, texnologiya, nəqliyyat-logistika, kənd təsərrüfatı, kosmik tədqiqatlar və qlobal ticarət yolları üzərində nəzarət kimi olduqca vacib məsələlər də yer alır. Prezident İlham Əliyevin ötən il fevralın 14-də, andiçmə mərasimində səsləndirdiyi ***“Bizim üçün TDT əsas beynəlxalq təşkilatdır, çünki bu bizim ailəmizdir. Bizim başqa ailəmiz yoxdur. Bizim ailəmiz Türk dünyasıdır”*** fikirlər Azərbaycanın bu birliyə verdiyi mənəvi və strateji dəyərin ən ali ifadəsidir.

*16 il sonra*

Tarix 25 noyabr 2025-ci ili göstərən zaman – 16 il sonra yenidən qədim türk sivilizasiya məkanı Naxçıvan zamanla dayaqları daha da möhkəmlənən, regionda və dünyada aparıcı təsisatlardan birinə çevrilən Türk Dövlətləri Təşkilatının növbəti ilkinə şahidlik edir. Azərbaycanın təşəbbüsü ilə Türk Dövlətləri Təşkilatına (TDT) üzv ölkələrin qeyri-hökumət təşkilatları (QHT) ilk dəfə bir platforma halında Bakıdan sonra muxtar respublikada toplaşır. Ən vacibi isə Naxçıvanda TDT-yə üzv ölkələrin QHT-lərinin Platforması təsis edilir. Bəli, tarix fərqli olsa da, məkan eynidir. Türk dövlətləri 16 il bundan öncə necə bu torpaqda bir ideya, fikir ətrafında toplaşmışdılarsa, yenə də onları bir araya gətirən, həmrəy, həmfikir edən buradır – “Türkün qapısı” Naxçıvandır.

Naxçıvanın həm Azərbaycanın, həm də Türk dünyasının hərbi-siyasi tarixində, mədəni təşəkkülündə, mənəvi dəyərlərinin formalaşmasında yeri və rolu hər zaman mühüm olub. 44 günlük Vətən müharibəsindən sonra Azərbaycanın regionda yaratdığı yeni reallıqlar fonunda isə bu torpaq daha çox maraqların daha böyük kəsişmə nöqtəsinə çevrilib. Əsrlər öncə qədim karvan yolları üzərində yerləşən, Böyük İpək Yolunun ayrılmaz parçasına çevrilən qədim diyar tezliklə öz ənənəvi, tarixi statusunu bərpa etmək üzrədir. Bu il avqustun 8-də Vaşinqtonda əldə olunan tarixi razılaşmalarla yaxın gələcəkdə reallaşacaq Zəngəzur dəhlizi təkcə Naxçıvanı ölkəmizin digər ərazisi ilə birləşdirməyəcək, həm də Mərkəzi Asiyadan Avropayadək bir sıra ölkələr, o cümlədən türkdilli dövlətlər arasında iqtisadi-ticari körpü yaradacaq. Hadisələrin gedişatı baxımından Türk Dövlətləri Təşkilatına üzv ölkələrin qeyri-hökumət təşkilatlarının həmrəylik forumunun Bakıdan sonra Naxçıvanda keçirilməsi və TDT-yə üzv ölkələrin QHT-lərinin Platformasının burada təsis edilməsi təsadüfi deyil, gələcəyə yönəlmiş, düşünülmüş mütərəqqi addımdır. Prezident İlham Əliyev Türk Dövlətləri Təşkilatına üzv ölkələrin qeyri-hökumət təşkilatlarının həmrəylik forumunun iştirakçılarına müraciətində də bütün bu incə məqamlara toxundu, Zəngəzur dəhlizinin türk dövlətləri arasında əməkdaşlığın inkişafında və möhkəmlənməsində mühüm rol oynayacağını vurğuladı. Sitat: ***“Bu gün Türk dünyası özünün yüksəliş dövrünü yaşayır. Beş il əvvəl qazandığımız Qarabağ Zəfəri türk xalqlarının ümumi sevinci və qürur mənbəyidir. İnanıram ki, hazırda yenidən qurulan Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları, açılacaq Zəngəzur dəhlizi türk dövlətləri arasında əməkdaşlığın inkişafında və möhkəmlənməsində mühüm rol oynayacaqdır”.***

Ümumilikdə, forumda Azərbaycan, Türkiyə, Özbəkistan, Qazaxıstan, Qırğızıstan, Türkmənistan, Macarıstan və Şimali Kipr Türk Respublikasından 500-dən çox vətəndaş cəmiyyəti təmsilçisi iştirak edib. Bu forum QHT-lərə Dövlət Dəstəyi Agentliyinin



Nail ƏSGƏROV

xətti ilə təşkil olunan ən böyük tədbir kimi tarixə düşür. Bakıdakı proqramda Zəngəzur dəhlizi ilə bağlı müzakirələr, Azərbaycan-Qazaxıstan QHT-lərinin əməkdaşlıq, Naxçıvanda isə “WUF13-ə doğru – Türk dünyasında ilk” mövzusunda panel sessiyaları diqqət mərkəzində olub. Toxunulan mövzular, müzakirə predmetinə çevrilən məsələlərlə həmrəylik forumu adından da məlum olduğu üzrə birgə siyasi, iqtisadi əməkdaşlığa, qlobal dünyanın yaratdığı nizamsızlığa qarşı həmrəy fəaliyyətə çağırış edir.

Bu il Qəbələdə keçirilən Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət Başçıları Şurasının 12-ci Zirvə görüşü də bir daha sübut etdi ki, TDT yarandığı ilk dövrlərdən fərqli olaraq fəaliyyətində çevikliyi əsas tutmağa çalışaraq təkcə mədəni və humanitar sahələrdə deyil, hərbi-siyasi baxımından da unikal güc mərkəzinə çevrilmək məqsədini qarşıya qoyub. Prezident İlham Əliyev TDT-yə üzv ölkələrin QHT-lərinin həmrəylik forumunun iştirakçılarına müraciətində ilk dəfə keçirilən bu tədbiri vahid məqsədlərə çatmaq naminə birgə səylərin artırılması baxımından yüksək qiymətləndirdi: ***“Türk dövlətlərinin artan potensialı və qlobal müstəvidə gündən-günə güclənən mövqeyi daha iddialı məqsədlərin qarşıya qoyulmasını, birgə səylərin artırılmasını, bütün sahələrdə əməkdaşlığın dərinləşdirilməsini, çevik mexanizmlərin yaradılmasını zəruri edir. İlk dəfə keçirilən Türk Dövlətləri Təşkilatına üzv ölkələrin qeyri-hökumət təşkilatlarının həmrəylik forumu bu istiqamətdə atılmış mühüm addımdır”.***





# Naxçıvanda Türk dünyası üçün yeni tarixi səhifə

## Naxçıvanda Türk dünyası üçün yeni bir tarixi səhifə yazıldı



“Naxçıvan şəhərində keçirilən həmrəylik forumu çərçivəsində Türk Dövlətləri Təşkilatına (TDT) üzv və müşahidəçi ölkələrin qeyri-hökumət təşkilatlarını birləşdirən yeni platforma təsis olunub”.

Milli Məclisin deputatı Azər Allahverənov “Şərq qapısı”na müsahibəsində bildirib ki, olduqca vacib tarixi hadisələrə şahidlik edirik. Türk dünyasını daha da birləşdirəcək, xüsusilə vətəndaş cəmiyyətləri arasında əlaqələri gücləndirəcək mühüm bir platforma təsis olundu.

Deputat deyib ki, necə ki 2009-cu ildə Naxçıvanda Türk dünyasının tarixində yeni bir səhifə yazıldısa, 2025-ci il noyabrın 25-də də burada yenidən tarixi hadisə baş verir. Türk Dövlətləri Təşkilatının vətəndaş toplumlarını yüksəldəcək vacib bir platforma yaradıldı.

Azər Allahverənov əlavə edib ki, TDT çərçivəsində mövcud olan 34 platformanın sırasına 35-ci platforma da daxil edildi. Təşkilata üzv və müşahidəçi statusunda olan 8 ölkə bu təşəbbüsü dəstəklədi.

Qeyd edək ki, Naxçıvanda Türk Dövlətləri Təşkilatına üzv ölkələrin QHT-lərinin Platforması rəsmən təsis olunub. Forumun qərarına əsasən platformanın sədri Azərbaycan Respublikası Milli Məclisinin deputatı Azər Allahverənov seçilib.

## Naxçıvanda yaradılan yeni platforma daha sıx əməkdaşlıq etməyimizə imkan yaradacaq

“Bu forumun çox önəmli olduğunu düşünürəm. Vətəndaş cəmiyyətlərinin, ora qatılan gənclərin, iştirak edən hər bir üzvün şəxsi inkişafına böyük töhfə verdiyini hesab edirəm. Cəmiyyətlərimizin problemləri var. Bəli, dövlətin mövqeyi çox önəmlidir, dövlət qurumları çox önəmlidir, amma biz bu problemləri təkcə dövlət qurumları olaraq həll edə bilmərik. Bu baxımdan, biz vətəndaş cəmiyyəti təşkilatları adlandırdığımız dərnəklərin, fondların və ya fərqli statusa malik təşkilatların cəmiyyətə çox ciddi töhfələri olacaq”.

Bu sözləri “Şərq qapısı”na müsahibəsində Türkiyənin “Yaşılay” Təşkilatının Baş katibinin müavini Mehmet Güllüoğlu deyib.



O qeyd edib ki, bu gün Türk Dövlətləri Təşkilatına üzv ölkələrin vətəndaş cəmiyyəti təşkilatları nümayəndələri və aidiyyəti qurumlar bir araya gəldi: “Bizim bir-birimizə öyrədə biləcəyimiz və bir-birimizdən öyrənəcəyimiz çox şey var. Birlikdə görə biləcəyimiz çox işlər var. Cəmiyyətlərimizin zəif təbəqələri mövcuddur: əlillər var, yaşlılar var, uşaqlar var, qadınlar var. Cəmiyyətin çoxlu fərqli təbəqələri var. Bu problemləri bir araya gələrək müzakirə etməyimiz lazımdır”.

“Türk dövlətləri olaraq bizim ortaq adətlərimiz, ortaq dillərimiz, ortaq ənənələrimiz var. Biz bir ailənin üzvüyük. Ona görə də bu ortaq bağlarımızı ortaq həll yolları yaradaraq daha da gücləndirməyimiz vacibdir. Ümid edirəm ki, yaradılan yeni platforma bizim bir araya gələrək yeni həllər tapmağımıza və daha sıx əməkdaşlıq etməyimizə imkan yaradacaq. Vətəndaş cəmiyyəti qurumları bu əməkdaşlıq üçün mühüm platformalardır”, – deyə Mehmet Güllüoğlu əlavə edib.

## Belə bir platformanın yaradılması vaxtında atılmış və olduqca vacib addımdır



“Türk dövlətləri və türk xalqlarının qeyri-hökumət təşkilatlarının bir araya gəldiyi bu platforma böyük əhəmiyyət daşıyır. Niyə vacibdir? Çünki görürük ki, ölkələrimizin liderləri dostluq münasibətləri qurur, müxtəlif məsələləri birlikdə həll edirlər, həm daxili, həm də qlobal problemlərin aradan qaldırılmasında fəal iştirak edirlər. Liderlər xalqlarımızı yaxınlaşdırmaq məqsədilə yeni ideyalar irəli sürürlər”.

Bu sözləri “Şərq qapısı”na müsahibəsində Özbəkistandakı “Yüksəliş” hərəkatının sədri, Özbəkistan parlamentində komitə sədri Babur Bekmurodov deyib.

Bekmurodov bildirib ki, liderlərin dostluğu mühüm amildir, lakin bu prosesin dayanıqlı olması üçün xalqlar arasında da səmimi və davamlı dostluğun formalaşması vacibdir.

“Bu platforma xalqlarımızı daha da yaxınlaşdırmağa imkan verən unikal bir məkandır. Düşünürəm ki, bu təşəbbüs türk xalqlarının səsinin dünyada daha gur səslənməsinə xidmət edəcək”, – deyə o əlavə edib.

## Bu təşəbbüs qeyri-hökumət təşkilatları üçün yeni imkanların sərhədlərini genişləndirir



“Qazaxıstan Vətəndaş Alyansı ölkənin ən böyük qeyri-hökumət təşkilatıdır. Onun tərkibinə 8000-dən çox qeyri-hökumət təşkilatı daxildir. Qazaxıstan Vətəndaş Alyansının ölkəmizin bütün regionlarında 20-dən çox filialı fəaliyyət göstərir”.

Bu sözləri Qazaxıstan Vətəndaş Alyansının direktoru Nuras Yeralı “Şərq qapısı” qəzetinə müsahibəsi zamanı bildirib.

“Belə əhəmiyyətli tədbirdə iştirak etdiyimə və spiker olduğuma görə çox şadam. Bir çox maraqlı mövzular müzakirə olundu. Ən əsas iki mövzu diqqət mərkəzində idi. Birincisi, türk dövlətləri üçün ideoloji baxımdan qeyri-hökumət təşkilatlarının platformasının yaradılması idi. İkincisi, urbanistika idi. Məhz bu mənim çıxış etdiyim mövzu oldu. Platforma ilə bağlı onu deyə bilərəm ki, mən bizim qeyri-hökumət təşkilatlarımız adından bu təşəbbüsü tam dəstəkləyirəm. Əminəm ki, onlar da bu təşəbbüsə dəstək verəcəklər. Çünki bu təşəbbüs çox faydalıdır və qeyri-hökumət təşkilatları üçün yeni imkanların sərhədlərini genişləndirir”, – deyə Nuras Yeralı əlavə edib.

## “Konstitusiya və Suverenlik İli”nə həsr olunmuş elmi konfrans keçirilib



AMEA Naxçıvan Bölməsində “Konstitusiya və Suverenlik İli”nə həsr olunmuş II elmi konfrans keçirilib. Tədbir AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyevin plenar iclası açması ilə başlayıb.

Akademik İsmayıl Hacıyev “Azərbaycanın tarixi inkişaf yolunda mühüm mərhələ: Konstitusiya və Suverenlik İli” mövzusunda məruzə edərək Azərbaycanın dövlətçilik ənənələrinin formalaşması, Konstitusiyanın qəbul edilməsi, müasir hüquqi-siyasi sistemin qurulması və ölkənin suveren inkişaf xəttinin müəyyənləşməsi proseslərini geniş şəkildə təhlil edib. Məruzədə 2024-cü il 28 dekabr tarixli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, Azərbaycanın müxtəlif tarixi dövrlərdə ərazi bütövlüyü məsələləri, Batum sülh müqaviləsi, Səfəvilər dövründə və Azərbaycan Xalq Cümhuriyyəti zamanı ölkənin sərhədləri, eləcə də BMT-nin 1993-cü ildə qəbul etdiyi dörd qətnamə ilə bağlı məsələləri xüsusi diqqətə çatdırıb.

Akademik, həmçinin ATƏT-in Azərbaycanla bağlı fəaliyyətinə, 1980-ci illərin sonu və 1990-cı illərin əvvəllərində ölkəmizə qarşı irəli sürülmüş ərazi iddialarına, Ümummilli Lider Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışına və dövlət idarəçiliyində həyata keçirdiyi mühüm islahatlara toxunub. Ulu Öndərin daxili və xarici siyasətdə qətiyyətli dövlət xadimi kimi rolunun güclənməsini, Prezident İlham Əliyevin 1993-2003-cü illər dövrünü “sabitlik və inkişaf illəri” kimi səciyyələndirməsini də məruzədə xüsusi vurğulayıb.

İsmayıl Hacıyev çıxışında, həmçinin Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsində qazandığı tarixi zəfərdən, aparılan antiterror tədbirlərindən, Laçın dəhlizi istiqamətində baş verən proseslərdən və Azərbaycanın regional diplomatiyasında mühüm yer tutan Vaşinqton görüşündən bəhs edib.

Plenar iclasda növbəti məruzə AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun elmi işlər üzrə direktor müavini, AMEA-nın müxbir üzvü, tarix elmləri doktoru, professor Vəli Baxşəliyev tərəfindən təqdim edilib. Alim “Bülövqaya keramikasının tipoloji xüsusiyyətləri və mədəni mənsubiyyəti” mövzusunda apardığı geniş tədqiqatlardan danışıb, Bülövqayada iki ildən artıq müddətdə arxeoloji araşdırmaların həyata keçirildiyini bildirib. Alim ərazidə 600-dən çox boyalı keramika nümunəsinin aşkar edildiyini, bu materialların Dalmatəpə və Ubeyd mədəniyyətləri ilə əlaqəsini izah edib.

## NDU-nun Beynəlxalq Kembric Məktəbinə yeni dərsliklər təqdim olunub



Naxçıvan Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən Beynəlxalq Kembric Məktəbinin şagirdlərinə yeni dərsliklər təqdim edilib. Bu addım Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2023-cü il 5 iyun tarixli Sərəncamı ilə təsdiqlənmiş “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nın icrası çərçivəsində atılıb.

Noyabrın 26-da baş tutan təqdimat mərasimində universitetin rektoru Elbrus İsayev şagirdlərlə görüşərək məktəbin fəaliyyətindən və görülən işlərin əhəmiyyətindən bəhs edib. O bildirib ki, bu məktəbin Kembric Beynəlxalq Təhsil Sisteminə əsasən fəaliyyət göstərməsi təhsilin beynəlxalq standartlara uyğun təşkilinə və keyfiyyətin yüksəldilməsinə xidmət edir.

Rektor məktəbin tədris laboratoriyaları, kitabxanası, idman meydançaları və imtahan mərkəzi ilə təmin olunmasının şagirdlərin həm akademik uğurlarına, həm də fərdi inkişafına töhfə verdiyini diqqətə çatdırıb.

Qeyd edək ki, təqdim olunan dərsliklər Kembric kurikulumuna uyğun olaraq hazırlanıb və şagirdlərin beynəlxalq imtahanlara daha hazırlıqlı şəkildə qatılmasına şərait yaradacaq.

## Naxçıvanda yerləşən 50 abidənin pasportu hazırlanır



Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti tərəfindən Naxçıvan Muxtar Respublikası ərazisində yerləşən tarix və mədəniyyət abidələrinin pasportlaşdırılması işlərinə başlanılıb.

Bu məqsədlə dövlət xidmətinin tabeliyində fəaliyyət göstərən “Azərbərpa” Elmi-Tədqiqat Layihə İnstitutunun mütəxəssisləri Naxçıvan Muxtar Respublikasına ezam edilib. Görülən işlər çərçivəsində abidələrin dəqiq memarlıq ölçmə cizgiləri hazırlanacaq, mövcud vəziyyəti qeydə alınacaq, fotofiksasiya aparılacaq, coğrafi koordinatları müəyyən ediləcək, tarixi arayışları tərtib olunacaq, arxiv materialları araşdırılacaq və digər zəruri tədbirlər həyata keçiriləcək.

Pasportların hazırlanması “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nın 2025-2027-ci illər üzrə Təfsilatlı Tədbirlər Planına uyğun olaraq icra edilir.

Pasportlaşdırılacaq abidələr arasında Naxçıvan şəhərində yerləşən Möminə xatun (1186-1187) və Yusif Küseyr oğlu (1161-1162) türbələri, İsmayıl Xan hamamı (XVIII əsr), Ordubad şəhərindəki Buzxana, Came məscidi və Mədrəsə (XVIII əsr), Culfa rayonunda Gülüstan türbəsi (XIII əsr) və Xanəgah memarlıq kompleksi, Kəngərli rayonunda Qarabağlar Memarlıq Kompleksi (XII-XIV əsrlər) kimi dünya və ölkə əhəmiyyətli memarlıq nümunələri də yer alır.

Xatırladaq ki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 8 iyul tarixli Qərarı ilə “Daşınmaz abidələrin pasportlaşdırılması Qaydaları” və “Daşınmaz abidələrin pasportunun nümunəvi forması” təsdiqlənib. Qərara uyğun olaraq Azərbaycan Milli Elmlər Akademiyasının rəyi nəzərə alınmaqla təsdiqlənmiş yeni forma əsasında Naxçıvan Muxtar Respublikası ərazisində yerləşən 50 tarix və mədəniyyət abidəsinin pasportu hazırlanacaqdır.

“Şərq qapısı”na açıqlamasında Azərbaycan Elmi-Tədqiqat Layihə İnstitutunun böyük mütəxəssis-memarı Sevil Əmiraslanova bildirib ki, 2005-ci ildə abidələrin pasportlaşdırılması üzrə nümunə təsdiq edilib və yeni pasportlarda abidələr haqqında daha ətraflı məlumatların toplanması nəzərdə tutulur: “Hazırda Möminə xatun türbəsində ölçü-planlama işləri aparılır. Pasportlaşdırma zamanı abidənin ölçü göstəriciləri, tarixi haqqında məlumat, memarlıq təhlili, arxiv materialları, müxtəlif dövrlərdə aparılmış dəyişikliklər, texniki müayinə və vizual baxış aktları hazırlanır. Abidənin mövcud vəziyyəti qiymətləndirilir və qüsurların aradan qaldırılması ilə bağlı təkliflər irəli sürülür. Eyni zamanda ədəbiyyat siyahısı və mühafizə zonası barədə qeydlər pasporta daxil edilir. Abidənin qeydiyyat vərəqi də tərtib olunur və pasportlaşdırma prosesindən sonra obyektə dair gələcək bərpa, müayinə və ölçü işləri ilə bağlı bütün məlumatlar həmin vərəqdə öz əksini tapır”.



Sevil Əmiraslanova qeyd edib ki, gələcəkdə Naxçıvan Muxtar Respublikası ilə yanaşı, Azərbaycanın digər bölgələrində də abidələrin pasportlaşdırılması istiqamətində işlər mərhələli şəkildə davam etdiriləcək və bütün abidələr dövlət qeydiyyatına alınacaq.

## Günəş panelli avtonom radiomonitorinq stansiyası istifadəyə verilib



Azərbaycan Respublikası ərazisində radioefirə fasiləsiz nəzarətin təmin edilməsi məqsədilə növbəti mühüm addım atılıb. Belə ki, Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində fəaliyyət göstərən Dövlət Radiotezliklər İdarəsi tərəfindən sistemli şəkildə aparılan silsilə tədbirlərin davamı olaraq bu günlərdə Dövlət Radiotezliklər İdarəsi və Naxçıvan Muxtar Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin mütəxəssislərinin birgə fəaliyyəti nəticəsində Naxçıvan şəhərində avtonom radiomonitorinq stansiyasının qurulması və istifadəyə verilməsi uğurla tamamlanıb.

Layihə çərçivəsində hər iki qurumun əməkdaşlarının səyi ilə qısa müddətdə günəş panelli avtonom enerji sistemi üzərində qurulmuş, proqram təminatı əsaslı SDR radioqəbuledici və onun komplektləşdiricilərindən ibarət müasir radiomonitorinq stansiyasının layihələndirilməsi və montajı icra edilib. Stansiya vasitəsilə ilk dəfə olaraq məsafədən olmaqla real vaxt rejimində Naxçıvan şəhərində yerli və kənar radioyayımlara nəzarət imkanı əldə edilmişdir.

Radiomonitorinq stansiyası tamamilə günəş enerjisi ilə fasiləsiz fəaliyyət göstərməklə 7/24 rejimdə qeyd edilən ərazidə radiotezlik spektrinə daha çevik şəkildə nəzarətin təmin olunması baxımından mühüm əhəmiyyət kəsb edir.

Dövlət Radiotezliklər İdarəsi və Naxçıvan Muxtar Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin birgə əməkdaşlığı ilə reallaşdırılan bu layihə respublikada radiomonitorinq infrastrukturunun genişləndirilməsi və modernləşdirilməsi istiqamətində növbəti uğurlu addımdır.

## Naxçıvan şəhərində 95,6 kilometrlik avtomobil yolunu əhatə edən əsaslı təmir işlərinə başlanılıb



“Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nın icrası ilə əlaqədar ümumi uzunluğu 10,3 kilometr olan Naxçıvan şəhərinin Babək məhəlləsi, 6-cı məhəllə, Hacıniyyət kənd avtomobil yolu və uzunluğu 17,5 kilometr olan Naxçıvan şəhər S.Vurğun, N.Naxçıvani, H.Rəhmanov, 58-ci məhəllə istiqamətində əsaslı təmir işləri həyata keçirilir.

Naxçıvan Avtomobil Yolları Dövlət Agentliyinin mətbuat xidmətindən bildirilib ki, hazırda yolda torpaq işləri görülür, yol əsası möhkəmləndirilir və suötürücü qurğular quraşdırılır. Bu proses yekunlaşdıqdan sonra avtomobillərin daha rahat hərəkət etməsi üçün yola 2 qat asfalt örtüyü salınacaq.



Qeyd edək ki, layihənin sifarişçisi Naxçıvan Avtomobil Yolları Dövlət Agentliyidir. İşlər podratçı “Polat Yol Yapı” şirkəti və subpodratçı “Naxproyol” MMC tərəfindən icra olunur.

## Naxçıvanda “Şərur” yallısı haqqında film çəkilir



Naxçıvanda Azərbaycan Respublikası Kino Agentliyinin dəstəyi ilə yeni film çəkilir. Ekran əsəri qədim xalq oyunu olan “Şərur” yallısına həsr olunub.

Filmin rejissoru əslən naxçıvanlı olan Orxan Cabbarovdur. Layihə Şərur bölgəsinin zəngin mədəni irsini, yallının ritual və sosial mənalarını, eləcə də bu ənənənin müasir dövrdə yaşadılma formasını sənədli və bədii üslublarını tamaşaçılara təqdim etməyi hədəfləyir.

Filmin çəkilişləri Naxçıvan şəhərində və muxtar respublikanın müxtəlif bölgələrində həyata keçiriləcək.



# Dövlətlərin siyasi maraqlarının kəsişdiyi qədim türk diyarı Naxçıvan

## Tarixin qəhrəman Naxçıvanı

Naxçıvan tarixinin səhifələrini vərəqlədikcə məğlubedilməzliyi, qəhrəmanlığı, torpaq sevgisi, vətənsevərliyi ilə özünü təsdiq edən Oğuz türkünün şanlı keçmişini görürük. Hər daşında ox nişanı olan bu torpağın özü qədər ulu və qədim olan, doğma və əzəmətli səslənən "Naxçıvan" sözü hər bir azərbaycanlı üçün əzizdir. Çünki Naxçıvan tarixboyu türk-İslam aləminin alınmaz qalası, Azərbaycan dövlətçiliyinin əməl və yaddaş mərkəzi olub və bu şanlı missiya bu gün də davam etməkdədir.

Qərblə Şərqi birləşdirən Böyük İpək Yolunun dayanacaq yeri, tarixboyu fatehlərin, qüdrətli dövlətlərin siyasi maraqlarının kəsişdiyi qədim türk diyarında 1918-20-ci illərdə iki güclü xarici gücün – ABŞ və İngiltərənin generalqubernatorluğu fəaliyyət göstərib. Bu o dövr olub ki, Azərbaycan əraziləri hesabına öz dövlətini yaradan ermənilər təkcə əzəli dədə-baba yurdumuz olan Zəngəzuru ələ keçirməklə kifayətlənməyərək Naxçıvana da sahib çıxmaq istəyiblər. Yeni yaranan Azərbaycan Xalq Cümhuriyyətinin şimalda bolşeviklərin, cənubda ermənilərin hərbi təcavüzündən ehtiyatlanaraq barışdırıcı siyasət yeritməsi, qədim Azərbaycan şəhəri olan İrəvanı ermənilərə güzəştə getməsi də "böyük Ermənistan" ideyasını hansı yolla olursa-olsun, gerçəkləşdirmək istəyən daşnakların əl-qolunu daha da açmışdı. Belə ağır və məşəqqətli dövrdə də ermənilərin silahlı basqınlarına mərdliklə sinə gərən Naxçıvan əhalisi fədakarlıq edərək Azərbaycandan ayrılmayıb. Türkiyə dövlətinin köməyi ilə naxçıvanlılar həm döyüş, həm də siyasi meydanda öz sözünü deyib.

Naxçıvan haqq davasını 1921-ci ildə imzalanmış iki beynəlxalq sənədlə – Moskva və Qars müqavilələri ilə qazanıb. Həmin dövrdə qardaş respublika çətin vəziyyətdə olsa belə Mustafa Kamal Atatürk Naxçıvanın yadelli düşmənlərdən qorunmasında böyük uzaqgörənlik nümunəsi göstərib. Mustafa Kamal Atatürk *"Azərbaycana bağlı Naxçıvan vilayəti qardaş Türkiyə ilə 11 kilometrlik sərhəddə olan türk yurdudur. Naxçıvan Türk dünyasının qapısıdır, onu qorumaq lazımdır…"* – deyir və çətinliklərə baxmayaraq, Kazım Qarabəkir paşanın rəhbərliyi altında Naxçıvana böyük ordu göndərir. Məhz həmin türk hərbçilərinin köməyi ilə Andranikin rəhbərlik etdiyi daşnaklar Naxçıvandan qovulur.

## 105 ildən sonra Egey dənizindən Türküstana

70 il sovet əsarətində qalan Naxçıvan Türk dünyasının qapısına vurulan böyük bir zənciri xatırladırdı. Bu zəncirin sökülməsi ilə xalqımızın başı üstündəki qara buludlar da dağıldı. Amma SSRİ-nin dağılması nəticəsində yaranmış hərc-mərclikdən istifadə edən məkrli düşmənlərimiz yenə öz çirkin əməllərini işə saldılar. Vaxtilə Zəngəzuru işğal edənlər indi də Naxçıvana girişməyə cəhd etdilər. Amma naxçıvanlılar yenə mətanətini itirmədi. Həmin illərdə muxtar respublika ağır sınaqlar, məhrumiyyətlər qarşısında qalsa da, Heydər Əliyev kimi dünya siyasətinin böyük korifeyi Naxçıvanda yaşayırdı və muxtar respublikaya rəhbərlik edirdi. Məhz Heydər Əliyev amili bölgəni labüd fəlakətdən xilas etdi, Naxçıvan qorundu.

Birinci Qarabağ müharibəsi nəticəsində Naxçıvan blokadaya alınaraq ana Vətənindən ayrı düşsə də, gözdəniraq, könüldən uzaq olmadı, blokada şəraitində inkişaf etdi, yaşadı. Həm də düşmənin gözləri önündə. Gündüzlər günəşin, gecələr qəlbimizi nura qərq edən Vətən sevgisinin işığında torpağımızı qoruduq. Vətən savaşında Naxçıvanın ər igidləri Qarabağa üz tutub, şəhidlik şərbəti içib, bayrağımızı Şuşaya, Zəngilana sancıb kiçik torpağa gələn yolları daha da yaxınlaşdırdılar.

Azərbaycan Prezidenti cənab İlham Əliyev Naxçıvan Muxtar Respublikasının blokadadan azad edilməsi istiqamətində çox önəmli və tarixi bir məsələnin həllini təmin edərək 2020-ci il noyabrın 10-da imzalanmış Birgə Bəyanata qədim diyarla bağlı xüsusi bir maddəni – 9-cu bəndi salmaqla önümüzdəki illərdə muxtar respublikanın beynəlxalq nəqliyyat dəhlizinə çevrilməsinə şərait yaratdı. Vətən müharibəsindəki qələbədən sonra çoxtərəfli əməkdaşlıq platformasının irəli sürməsi və hətta Ermənistanın da bu platformada yer almasının mümkünlüyü də Azərbaycanın xoş niyyətindən irəli gəlir. Bu dəhliz həm bizim, həm də qonşu dövlətlər üçün çox önəmlidir. Bu yol Türkiyə ilə Türk dünyası arasında fasiləsiz quru nəqliyyatını təmin edəcək. Türkiyə və Türk dünyası indi kəsintisiz bağlanacaq.

## İrəvanın "ev tapşırığı" Zəngəzur dəhlizi və onun yeni adı

Avqustun 8-də Vaşinqton görüşündə tərəflər sülh müqaviləsinin ilkin mətnini parafladılar və bu sənədin ratifikasiyası üçün daxili prosedurların başa çatdırılması üzrə konkret cədvəl müəyyən edildi. Mətn sərhədlərin delimitasiyası, diplomatik əlaqələrin qurulması və qarşılıqlı tanınma prinsiplərini özündə ehtiva edir. Əsas diqqətçəkən elementlərdən biri də nəqliyyat dəhlizinə – Zəngəzur koridoruna regional və beynəlxalq kontekstdə yeni münasibət oldu. ABŞ-nin təşəbbüsü ilə dəhliz beynəlxalq ticarət və tranzit imkanlarının genişləndirilməsi və təhlükəsizliyi üçün "Trump Route for International Peace and Prosperity" (TRIPP) adlandırıldı. Bununla bağlı kommersiya və təhlükəsizlik mexanizmləri üzərində ilkin razılaşma əldə edildi.

Bu addım regionun logistika xəritəsini dəyişdirə və enerji-ticarət axınlarını yönləndirə bilər. Dünyanın gözü qarşısında ən güclü dövlətin prezidenti Naxçıvan Muxtar Respublikasının blokadadan çıxarılması üçün bu yolun açılmasının vacibliyindən danışanda qalib ölkənin qalib sərkərdəsinin üzündəki məmnunluğu görən hər bir azərbaycanlı qürur duydu. Döyüş meydanında qazanılan qələbəni diplomatik masada – dünyanın mərkəzində qalibiyyətlə tamamlayan məğrur sərkərdə duruşu idi cənab Prezidentin duruşu.

Ağ evin açarının cənab İlham Əliyevə təqdim edilməsi isə daha da qürurverici məqam idi. Bu Naxçıvana gedən yolların bağlı qapılarının da açarı sayıla bilər. Bu açar təkcə Naxçıvanın yox, 105 ildir ki, İpək Yoluna, Turanın qapısına vurulan paslı qıfılları da açacaq. Tranzit yolun açılması təkcə Cənubi Qafqazın deyil, daha böyük bir coğrafiyanın taleyini dəyişəcək.

Yerin xəritəsində kiçik bir nöqtə kimi görünən Naxçıvan Türk dünyasına qucaq açacaq. 1920-ci ildə qapıları bağlanan İpək Yolu 105 ildən sonra vaxtilə Naxçıvanı ermənilərə peşkəş verməyə gələn, amma buna nail ola bilməyən ABŞ-nin əli ilə açılacaq. Bu dəhlizin açılmasına mane olmaq istəyənlər isə əbədi olaraq susacaq.

**"Şərq qapısı"**



## Dünyanın harasında olsa da, Azərbaycan gənci Vətən üçün çalışır

Dünyanın müxtəlif ölkələrində təhsil alan gənclərimiz doğma Azərbaycanımızın adını layiqincə ucalda bilmək üçün inamla çalışırlar. Onlar bilikləri, peşəkarlıqları və beynəlxalq arenadakı uğurları ilə Azərbaycan gəncinin nəyə qadir olduğunu göstərirlər. Bunların sırasında Naxçıvan Dövlət Universitetinin yetirməsi, hazırda İtaliyada təhsil alan Ləman Ələkbərova da var. Naxçıvan Dövlət Universitetində təhsil aldığım illərdən tanıdığım Ləman xanımla Naxçıvana səfəri zamanı yenidən həmsöhbət olmaq fürsəti yarandı: "Naxçıvanda aldığım təhsil mənim həyatımda əvəzsiz rol oynayıb. Orta məktəb illərimdə burada qazandığım bilik və dostluqlar dünyagörüşümü formalaşdırdı, inamımı artırdı. İxtisasca jurnalistəm. Bu isə mənə yalnız peşəkar bacarıqlar deyil, həm də həyatı fərqli baxış bucağı ilə görməyi öyrədib".

Müsahibim deyir ki, İtaliyada magistratura təhsili onun xəyallarını və məqsədlərini daha da gücləndirib. Xarici ölkədə təhsil almaq uşaqlıq arzusu olub. Həmişə fərqli mədəniyyətləri tanımağı və bilik dairəsini genişləndirməyi arzulayıb. Burada yalnız yüksəksəviyyəli təhsil almaq yox, həm də fərqli mədəniyyətləri öyrənmək, yeni dostluqlar qurmaq və özünü sınamaq fürsəti yaranıb. Bu qərar onun üçün həm hədəf, həm də həyatında yeni bir səhifə açmaq deməkdir. Hazırda isə İtaliyada Siena Universitetinin Siyasi Elmlər fakültəsinin Diplomatiya ixtisası üzrə magistr tələbəsidir.




İtaliyada oxuduğu müddətdə gördüyü işlərdən söz açan müsahibim deyir: "Burada həm Azərbaycan Baş Konsulluğunda təcrübə keçmiş, həm də ATƏT-in Varşava konfranslarında iştirak edərək ölkəmizin mövqeyini müdafiə etmişəm. Bu təcrübələr mənim üçün yalnız akademik inkişaf deyil, həm də praktiki bilik və diplomatiya bacarıqlarımı gücləndirən əvəzsiz bir imkan olub. Ölkəmizi təmsil etmək mənim üçün böyük fəxarət və məsuliyyətdir. Azərbaycanın zəngin mədəniyyətini, dərin tarixini və nailiyyətlərini hər yerdə tanıtmaq mənim üçün şərəfdir. Bu, Azərbaycan sevgimi ifadə etməyin və Vətənimə xidmət etməyin bir yoludur. Xaricdə olarkən Naxçıvanın adət-ənənələrini tanıtmağa çalışıram. Mömünə xatunu, Əlincə qalasını, Qeysəriyyə abidəsini və digər tarixi yerlərimizi oradakı insanlara izah etmişəm. Onlar bunu çox maraqla qarşılayır, hətta bəzən təəccüblənirlər və çox səmimi reaksiya verirlər. İtaliyada yaşamaq həm də düşüncə tərzimi genişləndirdi, məsuliyyət hissimi artırdı. Təkbaşına yaşamaq insana həm güc, həm də səbir öyrədir. Fərqli mədəniyyətlər arasında olmaq, insanlarla ünsiyyət qurmaq mənə daha açıq fikirlilik, daha çevik düşünmə bacarığı verdi".

Ləman xanımla söhbətimizdən belə qənaətə gəldim ki, ölkəmizdə müasir gəncliyin maarifləşməsi, onların inkişafına göstərilən xüsusi diqqət və qayğı yüksək səviyyədədir. Məhz bunun nəticəsidir ki, gəncliyimizin sorağı xaricdən gəlir.

**Bülbül RÖVŞƏNQIZI**

# Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatlarının 2025-ci ilin dekabr ayında vətəndaşların qəbulu cədvəli

| № | Deputat | Tarix və yer | Əlaqələndirici şəxslər və əlaqə nömrələri |
|---|---|---|---|
| 1. | 1 saylı Sədərək seçki dairəsi üzrə İsmayılov Mahir İslam oğlu | 16.12.2025, saat $10^{00}$, Sədərək rayonu, Heydərabad Qəsəbə İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Əhmədov Vətən Abbas oğlu, 050-453-14-49 |
| 2. | 2 saylı Dəmirçi seçki dairəsi üzrə Quliyeva Zeynəb Kərim qızı | 19.12.2025, saat $11^{00}$, Sədərək rayonu, Qaraağac Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Novruzov Elçin Abil oğlu, 060-569-45-73 |
| 3. | 3 saylı Maxta seçki dairəsi üzrə Şıxəliyev Emin Arif oğlu | 19.12.2025, saat $15^{30}$, Şərur rayonu, Maxta Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Abbasov Hüseyn Mübariz oğlu, 060-515-05-51 |
| 4. | 4 saylı Yengicə seçki dairəsi üzrə Abbasov Əli Feyzulla oğlu | 26.12.2025, saat $15^{00}$, Şərur rayonu, Aşağı Aralıq Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Nəcəfov Milad Niyaz oğlu, 060-201-11-91 |
| 5. | 5 saylı Çomaxtur seçki dairəsi üzrə Nəcəfsoy Pərvin Vidadi qızı | 25.12.2025, saat $11^{00}$, Şərur rayonu, Muğanlı Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Nəcəfsoy Aqil Yediyar oğlu, 050-405-43-85 |
| 6. | 6 saylı Çərçiboğan seçki dairəsi üzrə Babayeva Aynur Arif qızı | 08.12.2025, saat $15^{00}$, Şərur rayonu, Çəmənli Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Məmmədova Nuranə Arif qızı, 070-523-64-12 |
| 7. | 7 saylı Xanlıqlar seçki dairəsi üzrə Novruzov Azad Sevindik oğlu | 18.12.2025, saat $10^{30}$, Şərur rayonu, Xanlıqlar Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Bağırov Turqay Faiq oğlu, 060-550-20-20 |
| 8. | 8 saylı Düdəngə seçki dairəsi üzrə Bayramov Mübariz Rəcəb oğlu | 19.12.2025, saat $15^{00}$, Şərur rayonu, Zeyvə Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Əhmədova Fatimə Hüseyn qızı, 060-209-99-93 |
| 9. | 9 saylı Mahmudkənd seçki dairəsi üzrə Şükürov Kamil Qəzənfər oğlu | 03.12.2025, saat $15^{00}$, Şərur rayonu, Mahmudkənd Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Əliyev Mehman Vəli oğlu, 050-647-50-04 |
| 10. | 10 saylı Şərur şəhər seçki dairəsi üzrə Hacıyeva Sevil Məhəmmədəli qızı | 19.12.2025, saat $15^{00}$, Şərur Rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin inzibati binası | İsmayılova Mahı Arif qızı, 070-755-00-76 |
| 11. | 11 saylı Aşağı Yaycı seçki dairəsi üzrə Həsənova Sevinc Nəsrəddin qızı | 04.12.2025, saat $15^{00}$, Şərur rayonu, Gümüşlü Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Kərimova Tərifə Məmməd qızı, 050-719-85-39 |
| 12. | 12 saylı İbadulla seçki dairəsi üzrə Məmmədov Məmməd Kərəm oğlu | 17.12.2025, saat $15^{00}$, Şərur rayonu, Tumaslı, Vayxır, Diyadin kənd sakinləri,Tumaslı Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Məmmədli Çinarə Məmməd qızı, 077-322-86-86 |
| 13. | 13 saylı Püsyan seçki dairəsi üzrə Novruzov Rafiq Novruz oğlu | 19.12.2025, saat $15^{00}$, Şərur rayonu, Püsyan Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | İbrahimov Allahverdi İsa oğlu, 050-571-33-03 |
| 14. | 14 saylı Qarabağlar seçki dairəsi üzrə Zeynalov Təbriz Eyvaz oğlu | 23.12.2025, saat $11^{00}$, Kəngərli rayonu, Qarabağlar Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Qənbərov Ramal Fərhad oğlu, 060-285-00-15 |
| 15. | 15 saylı Qıvraq seçki dairəsi üzrə Orucova Xəzəngül Yunis qızı | 03.12.2025, saat $11^{00}$, Kəngərli rayonu, Böyükdüz Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Məmmədova Vəfa Elman qızı, 060-491-30-96 |
| 16. | 16 saylı Xok seçki dairəsi üzrə Məmmədov Mövlan Ələddin oğlu | 08.12.2025, saat $14^{00}$, Kəngərli rayonu, Yeni Kərki Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Hacızadə Qorxmaz Vahid oğlu, 050-749-63-10 |
| 17. | 17 saylı Nehrəm seçki dairəsi üzrə Cəfərov Rauf Mehralı oğlu | 19.12.2025, saat $15^{00}$, Babək rayonu, Nehrəm Qəsəbə İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Hüseynov Elvin Hüseyn oğlu, 050-246-67-78 |
| 18. | 18 saylı Nehrəm seçki dairəsi üzrə Rzayev Teymur Yaqub oğlu | 04.12.2025, saat $15^{00}$, Babək rayonu, Güznüt Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Axundov Simral Fərəc oğlu, 050-289-05-78 |
| 19. | 19 saylı Babək şəhər seçki dairəsi üzrə Allahverdiyeva Həbibə Rəşad qızı | 22.12.2025, saat $10^{00}$, Babək rayonu, Hacıvar Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Fərzəliyeva Nurşanə İntiqam qızı, 051-923-54-56 |
| 20. | 20 saylı Zeynəddin seçki dairəsi üzrə Həşimov Əli Həsənqulu oğlu | 17.12.2025, saat $11^{00}$, Babək rayonu, Qahab kəndi səyyar qəbul | İbrahimov Namin Cabbar oğlu, 060-398-20-25 |
| 21. | 21 saylı Sirab seçki dairəsi üzrə Qənbərov Qafar Tahar oğlu | 24.12.2025, saat $15^{00}$, Babək rayonu, Kərimbəyli Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Qənbərli Gülcan Qafar qızı, 060-201-41-01 |
| 22. | 22 saylı Şıxmahmud seçki dairəsi üzrə Məmmədov Üzeyir Səyyad oğlu | 18.12.2025, saat $14^{00}$, Babək rayonu, Gülşənabad kənd mərkəzi | Həsənəliyev Fərid Rasim oğlu, 060-541-94-95 |
| 23. | 23 saylı Cəhri seçki dairəsi üzrə Bayramova Ülkər İmamqulu qızı | 28.12.2025, saat $15^{00}$, Babək rayonu, Cəhri qəsəbə uşaq musiqi məktəbinin binası | Quliyev Emil Orxan oğlu, 077-545-85-90<br>Əliyeva Fidan Hüseyin qızı, 051-533-71-71 |
| 24. | 24 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Əliyeva Nuray Yadigar qızı | 23.12.2025, saat $11^{00}$, Naxçıvan şəhəri, Qaraxanbəyli Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Seyidli Sabirə Azər qızı, 099-308-00-47 |
| 25. | 25 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Məmmədova Xumar Şəmsi qızı | 25.12.2025, saat $11^{00}$, Naxçıvan şəhəri, 4 saylı Sahə İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Hüseynli İradə Məzayıl qızı, 070-575-51-36 |
| 26. | 26 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Orucov Asəf Yunis oğlu | 15.12.2025, saat $16^{00}$, Naxçıvan şəhəri, Əliqulu Qəmküsar və Əlincə məhəllə sakinləri səyyar qəbul | Əliyev Səfər Səxavət oğlu, 060-485-25-85<br>Məmmədova Ziniyət Zakir qızı, 060-485-25-65 |
| 27. | 27 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Məmmədzadə Vüsal Əziz oğlu | 04.12.2025, saat $11^{00}$, Naxçıvan şəhəri, 2 saylı Mənzil İstismar İdarəsinin inzibati binası | Məmmədli Röyal Vüsal oğlu, 060-200-54-64 |
| 28. | 28 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Babayeva Təhminə Adil qızı | 19.12.2025, saat $16^{00}$, Naxçıvan şəhəri, 4 nömrəli tam orta məktəbin binası | Cəlilzadə Səkinə Əhməd qızı, 051-310-55-38 |
| 29. | 29 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Məmmədov Bəhruz Qibləli oğlu | 19.12.2025, saat $15^{00}$, Naxçıvan şəhəri, 7 saylı uşaq bağçası binası | Rəhimov Vüsal Musa oğlu, 060-333-00-23 |
| 30. | 30 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Əhmədova Şəhla Hüseyn qızı | 16.12.2025, saat $12^{00}$, Naxçıvan şəhəri, 5 nömrəli tam orta məktəbin binası | Əhmədova Arzu Rza qızı, 060-384-34-30 |
| 31. | 31 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Məmmədov Nazim Məmməd oğlu | 24.12.2025, saat $15^{00}$, Naxçıvan şəhəri, 14 nömrəli tam orta məktəbin binası | Hüseynov Sərvər Zeyqəm oğlu, 050-364-05-06 |
| 32. | 32 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Qasımov Əziz Kamal oğlu | 23.12.2025, saat $16^{00}$, Naxçıvan şəhəri, Əcəmi məhəlləsi səyyar qəbul | Rəhimov İntiqam Rəhim oğlu, 055-873-85-86 |
| 33. | 33 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Dünyamalıyeva Aysel Məmməd qızı | 15.12.2025, saat $12^{00}$, Naxçıvan şəhəri, Əliabad qəsəbəsi səyyar qəbul | Əhmədova Arzu Rza qızı, 060-384-34-30 |
| 34. | 34 saylı Şahbuz şəhər seçki dairəsi üzrə Rüstəmova Gülşad Qəzənfər qızı | 10.12.2025, saat $11^{00}$, Şahbuz rayonu, Nursu Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Rzayev Əli Firudin oğlu, 050-337-69-44 |
| 35. | 35 saylı Kolanı seçki dairəsi üzrə Tarverdiyeva Gülxarə Budaq qızı | 05.12.2025, saat $11^{00}$, Şahbuz rayonu, Kükü Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Məmmədli Səid Mehrab oğlu, 060-400-30-51 |
| 36. | 36 saylı Badamlı qəsəbə seçki dairəsi üzrə Məmmədov Ramiz Gülməmməd oğlu | 04.12.2025, saat $15^{00}$, Şahbuz rayonu, Şada Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Qasımov Bəhlul Fərəməz oğlu, 050-483-29-78 |
| 37. | 37 saylı Culfa şəhər seçki dairəsi üzrə Əliyev Əjdər Zahid oğlu | 10.12.2025, saat $10^{00}$, Culfa Şəhər İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Məmmədov Rəhman Abasət oğlu, 060-469-08-69, 077-569-43-65 |
| 38. | 38 saylı Yaycı seçki dairəsi üzrə Xudiyev Rza Əli oğlu | 19.12.2025, saat $11^{00}$, Culfa rayonu, Yaycı Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Canbaxşiyev Səməd Canbağış oğlu, 070-949-00-01<br>Əliyev Əli Şəmsəddin oğlu, 050-740-20-27 |
| 39. | 39 saylı Bənəniyar seçki dairəsi üzrə Abdullayev Qəzənfər İsmayıl oğlu | 27.12.2025, saat $11^{00}$, Culfa rayonu, Qızılca kənd mərkəzi | Əsgərov Elnur Lazar oğlu, 055-299-15-99, 060-211-82-42 |
| 40. | 40 saylı Saltaq seçki dairəsi üzrə Canməmmədov Canməmməd Ramiz oğlu | 09.12.2025, saat $10^{00}$, Culfa rayonu, Əlincə və Xoşkeşin kənd sakinləri, Əlincə Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Təhməzov Rafiq Rafiq oğlu, 060-406-07-77 |
| 41. | 41 saylı Ordubad şəhər seçki dairəsi üzrə Məmmədov Bəxtiyar İbrahim oğlu | 11.12.2025, saat $11^{00}$, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin inzibati binası<br>25.12.2025, saat $11^{00}$, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin inzibati binası<br>18.12.2025, saat $15^{00}$, Ordubad Rayon İcra Hakimiyyətinin inzibati binası | Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Vətəndaşların qəbulu sektoru, 036-544-01-43 |
| 42. | 42 saylı Aşağı Əndəmic seçki dairəsi üzrə Abdullayev Arzu Kamal oğlu | 04.12.2025, saat $15^{00}$, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin inzibati binası<br>18.12.2025, saat $15^{00}$, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin inzibati binası | Hacıyev Çinar Sahib oğlu, 060-352-52-53 |
| 43. | 43 saylı Vənənd seçki dairəsi üzrə Nəbiyev Ramil Paşa oğlu | 02.12.2025, saat $15^{30}$, Ordubad rayonu, Vələver Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Əhmədov Ziyad Mehman oğlu, 070-280-75-01 |
| 44. | 44 saylı Dəstə seçki dairəsi üzrə Rzayev Elmar İlqar oğlu | 29.12.2025, saat $16^{00}$, Ordubad rayonu, Çənnəb Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Rzayev Elmir Elmar oğlu, 055-317-62-01 |
| 45. | 45 saylı Sabirkənd seçki dairəsi üzrə Əhmədova Gülxarə Mənaf qızı | 17.12.2025, saat $12^{00}$, Ordubad rayonu, Kələntər Dizə kənd mərkəzi | Əhmədov Suat Yusif oğlu, 060-200-09-30, 077-573-75-00 |






## Ədəbiyyatımızın Məmməd Araz dünyası

### Bu dünyada söz ehkam taxtındadır

(esse)

Şahbuz rayonuna hər yolum düşəndə "Vətən mənə oğul desə, nə dərdim", – deyən ustad şairimiz Məmməd Arazın doğulduğu Nursu kəndində görkəmli sənətkarın ev-muzeyini ziyarət edirəm. Bir vaxtlar Məmməd Araz Nursu haqqında nisgilliklə yazırdı:

*Kəndim, balacasan, çox balacasan,*
*Adın yox dünyanın xəritəsində.*
*Atılıb qalmısan gözlərdən uzaq,*
*Çaylı, baldırğanlı dağ dərəsində.*

Şair həmin şeirində doğma kəndini tozlu küçələrinin sayına görə dünyanın birinci kəndi hesab edirdi. Bu gün o kənd gözlərdən uzaqda deyil. Adı da dünyanın xəritəsindədir. Küçələri də şəhərlərimizin küçələrindən seçilmir. O da xüsusi qeyd olunmalıdır ki, doğulub boya-başa çatdığı, hər gülü, çiçəyi, hər daşı, qayası ilham mənbəyi olan Nursu kəndində açılan bu muzey Məmməd Arazla yanaşı, ümumən, Azərbaycan ədəbiyyatına, mədəniyyətinə, incəsənətinə böyük diqqət və ehtiramın ifadəsi kimi dəyərləndirilib. Bununla Vətən ona bir daha oğul deyib.

...Bu da Məmməd Arazın ev-muzeyi. Və ilk anda düşüncələrimə bir fikir hakim kəsilir: ədəbiyyatımızı yaradan korifey sənətkarların itkisi böyükdür və etiraf edək ki, belə itkilərin yerinin doldurulması mümkün deyil və əgər mümkün olarsa, bu, Ulu Tanrının işidir. Məmməd Araz belə sənətkarlar sırasında özünəməxsus yer tutub. Ədəbiyyatımızda onun qurduğu Məmməd Araz dünyası bu gün poeziya həvəskarlarının mənəvi ruh aldıqları bir ünvandır. Bu ünvanda söz ehkam taxtındadır. Müqəddəsdir, təmizdir söz, aliliyin sinonimidir, ləkə götürmür. Anamızın şirin laylasıdır, körpələrimizin nəğməsidir, sevgimizi bu varlıqla ifadə edirik; düşmənə sözlə qılıncdan da güclü zərbə vurmaq olar.

Dahi Füzulini "Sözün günəşi", "Söz dünyasının məhvəri" adlandıran şair üçün sözün qaynağı haradan başlayır?

*Azərbaycan – mayası nur, qayəsi nur ki,*
*Hər daşından alov dilli ox ola bilər.*
*Azərbaycan deyiləndə ayağa dur ki,*
*Ana yurdun ürəyinə toxuna bilər.*

Məmməd Araz sözünün qaynaqlandığı torpaq Azərbaycandır. O Azərbaycan ki qayalarda bitən çiçək, çiçəklərin içində qayadır. O Azərbaycan ki şair bu torpağı vəsf edərək Azərbaycan dünyasından dünyaya baxır. O Azərbaycan ki Məmməd Araz dünyasının qibləgahıdır. Bu qibləgahın min illərə bərabər tarixi var. Bu tarixi vərəqləmək üçün bir insan ömrü bəs etməz. Qəhrəmanlıq, əzəmət, vüqar, məğrurluq, şan-şöhrət dolu həmin tarix bu xalqın yaddaş kitabıdır, kimliyidir, mənəviyyatıdır, dosta sevgisi, düşmənə qəzəbidir, bu günüdür, sabaha cavabdehliyidir...

*...Dişiniz qalmadı söz çeynəməkdən,*
*Bol məhsul olarmı, balam, bu qədər?!*

"Saç ağartdım söz yolunda", – deyən şair söz urvatdan düşəndə bu qiymətli, əvəzsiz varlığı məhsul adlandırmaqdan başqa bir söz tapa bilmir. Bu, Məmməd Arazın sözə böyük ehtiramının elə sözlə də ifadəsidir. Bütün şeirlərində şairin sözə munis münasibətini hiss etmək çətin deyil. Maraqlı orasıdır ki, şair bunu oxucuya çatdırmağı qarşısına məqsəd qoymur; bu, şairin təbiətindən, sözə mehrindən irəli gəlir, söz də onun sözündən çıxmır.

Sözlə qapılar açmaq da olar, bağlamaq da. Söz inamdır, söz imandır; odda yanmır, buzda donmur. Çünki o, böyük qüdrətə sahibdir. Min illər boyu bu həqiqət sınanıb. Şairi bir də düşündürən odur ki, sözdən bəzi şairlər ayrı-ayrı məqamlarda ayrı-ayrı məqsədlər üçün istifadə ediblər, ucuzlaşdırıblar sözü. Burada daxili bir haray yeni şeirin misralarına hopub:

*Sirr açar, dürr açar açarımız da,*
*Od donsa, buz yansa, inam ələnməz;*
*Söz açıq olanda içərimizdə*
*"Yalanlar, filanlar" qafiyələnməz.*

Məmməd Araz içdən gələn bir ağrı ilə qələm sahiblərinə üzünü tutur; onları sözü ucuzlaşdırmamağa çağırmaqla yanaşı, poeziyada sözdən alət kimi istifadə edənləri söz atəşi ilə qamçılayır.

*Hərdən qulaqlarım gözsüz olanda,*
*Ürəyim dünyanı eşidə bilmir.*
*Sözlü olmayanda, sözçü olanda,*
*Qələmim dərinə işləyə bilmir.*
*Sözçü olub, sözlü olmayanlara.*

Məmməd Araz ustad Molla Pənah Vaqifə istinad edərək deyir:

*Sözü ayaqlara atmadığından,*
*Özü vəzir oldu, sözü şah oldu.*

"Yıxın məni söz atımdan kəsmir əgər söz qılıncım", – deyən şair sözdən söz kimi istifadə etməyənlərə, poeziya adlı kəhkəşanda müqəddəsliyə başqa prizmadan yanaşanlara sözünü deməyi özünün borcu sayır. Burada şairin həm də doğma ana dilimizə, onun söz adlı dünyasına sonsuz məhəbbəti bir daha təsdiqlənir:

*Bu sözdü – dərdi, qəhərdi,*
*Sonu işıqdı, səhərdi,*
*Atdı, cilovdu, yəhərdi,*
*Söznən zarafat eyləmə!*

✍ **Muxtar MƏMMƏDOV**

## Bəlkə, oldun şahın oğlu, Məmməd Araz

Ədəbiyyat, poeziya, şeir və şeiriyyət... Bu sözlərin altında elə bir tilsim yatır ki, bu tilsim gah Məmməd İbrahimov kimi cavan bir oğlanı Məmməd Araz tək şair edir, gah da əşqdən sulanmış gözlər ilə milyon fikir içində yollara baxdırır... Qəribədir, görəsən, həmin baxışların altında nələr yatırdı. Naxçıvandan Bakıya, Vətən sevgisindən yar sevgisinə uzanan dərin və mənalı baxışlar...

Şahbuz rayonunun Nursu kəndində doğulan balaca Məmməd, bəlkə, özü də bilmədən həyatın mancanağına qoyularaq poeziya atəşinə atılmışdı. Şairləri şair edən qəlbindəki sevgidir deyirlər... Ya xoşbəxtlikdən şair olursan, ya da xatirələrin buraxdığı acı nisgildən... Bir yanda "Araz" təxəllüsü, bir yanda qəlbinin bir tərəfində qalan həmin o xatirələr...

Onun poeziyasının dərinliklərində gah Vətən "Oğullarının gözünün atəşi gözəl əridir", gah da taleyin oyunundakı cütlənmiş zərlər hey atılsa da, qoşa düşmür...

Məmməd Arazın şeirləri bir dağ küləyinin səsi kimidir, gah sərt, gah da içi közlü bir nəfəs. Onun poetik aləmi bir torpaq qoxusudur. Yağışdan sonra islanmış daşların üstündə dayanan Vətən duyğusu, yurd həsrəti, insanın öz kökü ilə söhbəti. O, yazanda sanki torpaq danışır, dağların dərinliyindən bir nida gəlir, çayın səsi misralara çevrilir. Araz poeziyasında Vətən anlayışı bir coğrafiya deyil, bir taledir. O, torpağı yalnız ayaq altında gəzilən yer kimi deyil, ruhda daşıdığımız məkan kimi görür. Hər daşı bir xatirə, hər çiçəyi bir yaddaş, hər səsi bir çağırışdır. Şair üçün Vətən doğulduğun yerdən çox, yaşamaq istədiyin duyğudur. Onun misralarında Vətən bir qadın kimi sevilir, bir ana kimi qorunur, bir uşaq kimi ağlayır.

Onun yaradıcılığı bir tərəfdən dağ kimi hündür, sözündə inadkar, digər tərəfdən, çay kimi sakit, duyğusunda şəffafdır. Şair insanla təbiət arasında körpü qurur. Dağları insana bənzədir, çayları ağlayan könül kimi təsvir edir. Sanki təbiətin dili ilə danışır, daşlara can verir, ağaclara nəfəs bağışlayır. Şairin misralarında insanın içində bir mübarizə var, qorumaqla itirmək arasında, ümidlə ümidsizlik arasında, qalmaqla getmək arasında. Bax elə bu ziddiyyətin adı poeziyadır. Hər sətirdə bir yanğı, bir dirəniş hiss olunur. Arazın şeirlərində sevgi də var, amma bu sevgi təkcə qadınla kişi arasında deyil, insanla yurd arasında bir bağlılıqdır. Onun sevgisi təmiz, ağırlıqlı, nəfəs kimi təbii, dua kimi səssizdir. Hər sətir sanki insanın içindən bir "ah" kimi çıxır, amma o "ah" ümidin özüdür. Elə bu dəmdə şairin bir misrası yada düşür:

*Yaş ötüb, ayılıb görürsən bir vaxt,*
*Heç nə yazmamısan, ömür yarıdır.*
*Alnına yazılan qırışlar ancaq,*
*Ömrünün şikayət misralarıdır...*

Şairin yaradıcılığına çoxlu bənzətmələr etmək mümkündür. Məsələn, Azərbaycanın poetik atlası… Onun misralarında dağların səssizliyi, çayların çağlayışı, xalqın gülüşü, ananın gözyaşı, döyüşçünün igidliyi, müəllimin baxışı var. O, bir xalqın bütün duyğularını bir ürəyə, öz dünyasına sığışdıran romantikdir. Bu poeziya səninlə danışmır, əksinə, səni öz-özünlə danışmağa vadar edir. Buna görə Məmməd Araz oxuyanda sözlərdən çox sükut səni düşündürür. Çünki onun hər sətirində bir vicdan nəfəsi, bir torpaq qoxusu var.

Şairin misralarında maraqlı mövqelər olduqca çoxdur. Hətta şair özü də şeirlərində sevginin atəşindən üsyan edərək bütün sirlərini bilən anasına belə məhəbbət sirrini deyə bilməyib, o gündən bəri qəlbini heç kimə vermədiyini deyir...

Şeirlərinə musiqilər bəstələnən şair sanki öz müəllifi olduğu sözləri dinlədikcə Məmməd Araz olduğunu unudaraq yenidən Nursu kəndinin balaca Məmmədinə qayıdır...

Nə bilmək olar... Bəlkə, hələ də Məmməd Arazın şeirlərindəki bəzi misralar Nursu kəndinin yollarında ilişib qalıb... Və nəhayət, Məmməd Arazın həyatının Bakı çağı başlayır... Coğrafiya fakültəsini bitirən şair, eyni zamanda sözün xəritəsinin incəliklərinə də bələd olmağı bacarırdı...

50-ci illər... Məmməd Arazın Azərbaycan ədəbiyyatında parlayan ulduzlar arasında sayrışmağa başladığı həmin çağ... Jurnallarda dərc olunan şeirlər, mətbəələrdə çap olunan kitablar Məmməd Araz poeziyasını hər keçən gün irəli aparmağı bacarırdı.

Azərbaycan ədəbiyyatının unudulmaz simalarını yetişdirən diyarlardan biri də məhz elə Naxçıvan yurdudur... Azərbaycan ədəbiyyatı deyilərkən Şəki-Şamaxı, Qarabağ-Zəngəzur eli kimi ünvanlarla yanaşı, Naxçıvan torpağının adının çəkilməsi də məhz elə neçə-neçə Cavidlərin, Mirzə Cəlillərin, Sidqilərin və nəhayət, müasir poeziya aləminin qələm sahibləri olan İslam Səfərlilərin və Məmməd Arazların bu torpaqda yetişməsidir... Gedən şairlərdən bizə yadigar qalanlar təkcə buraxdıqları söz mirasıdır:

*Bəlkə, bu yerlərə bir də gəlmədim,*
*Duman, salamat qal, dağ, salamat qal.*
*Dalımca su səpir yoxsa buludlar? –*
*Leysan, salamat qal, yağ, salamat qal!*

*Qıy vuran qartallar yox oldu çəndə,*
*Nərgizlər saraldı şehli çəməndə.*
*Ey qaragöz pəri, dalımca sən də*
*Boylan, salamat qal, bax, salamat qal!*

Şair təkcə sözlərlə rəsmlər yaratmır, o həm də öz yurdunun gənc şairləri üçün qocaman bir örnəkdir. Məmməd Araz mənim kimi gənc qələm sahiblərinin yaradıcılığında "Qoca şair Məmməd Araz" olaraq yaşayır. Nə qədər qoca olsa da, ölməz bir sənətkar…

*Vətən şahdır...*
*Oğulları yazır ondan.*
*Cavan şair, sən də yazıb-yarat bir az,*
*Şeiriyyətdə olmasan şah, eybi yoxdur.*
*Olmasan şah, ruhdan düşmə, yenə də yaz,*
*Bəlkə, oldun,*
*Şahın oğlu – Məmməd Araz...*

✍ **Rafiq TƏHMƏZ**



# Naxçıvandan olan şagirdlər son 5 ilin ən böyük uğuruna imza atıblar



Beynəlxalq STEAM Azərbaycan Festivalında (SAF 2025) Naxçıvan STEAM Təlim-Tədris Mərkəzinin 10 komandasından 3 komanda (dron, CNC lazer kəsim və mühəndislik kateqoriyası) I yerin, 1 komanda (robot qayıq yarışları üzrə) II yerin, 4 komanda (xətt izləyən robot, robokids kateqoriyası üzrə) III yerin olmaqla, ümumilikdə, 8 komanda qalib olub. Biz də qalib komandanın üzvləri ilə redaksiyamızda görüşüb həmsöhbət olduq.

STEAM Mərkəzinin pilotsuz uçuş texnologiyaları və kodlaşdırma dərnəyində təhsil alan Uğur Quluzadə deyir ki, dərnəkdə göstərdiyi uğurlu nəticələr müəllimlərinin diqqətini çəkdiyi üçün müxtəlif tədbirlərə seçilib: “SAF24 elan olunandan sonra “Griffin” komandası olaraq yarışa qatılmağa qərar verdik. Gecəmizi gündüzümüzə qataraq çox intensiv şəkildə hazırlaşdıq və birinci yerə layiq görüldük. Bu il təşkil olunan SAF25 festivalında da uğurumuzu təkrarlamaq istəyirdik”.

O deyir ki, yarışdan əvvəl dronun dizaynı və test uçuşları zamanı bir sıra texniki çatışmazlıqlar üzə çıxıb: “Lakin buna baxmayaraq, yarışa 3 gün qalmış bütün çatışmazlıqları aradan qaldırdıq və dron tam hazır vəziyyətə gətirildi. Komanda yoldaşlarımızla birlikdə Bakı şəhərinə yollandıq. Ardıcıl ikinci dəfə birinciliyi qazanmaq bizi çox sevindirdi. Naxçıvana qayıtdığımız zaman hava limanında valideynlərimiz bizi təntənəli şəkildə qarşıladı. Mənə dəstək olan valideynimə və Kazım müəllimə xüsusi təşəkkürümü bildirirəm”.

“Flytech” kateqoriyasında birinci yerin sahibi olan “Phoenix” komandasının üzvü Onur Abdullayev dostunun fikirlərinə qoşularaq əlavə edir ki, yarışa hazırlıq iki ay əvvəl başlayıb və bu müddət kifayət qədər çətin olub: “Hazırlıq prosesində çox sayda texniki problemlərlə üzləşirdik. Bəzən gecə saatlarına qədər mentorumuz Kazım müəllimlə birlikdə işləməli olurduq. Yarış zamanı da çətinliklər oldu, amma biz hər problemi komanda halında həll etdik. Əzmkarlığımız, fədakarlığımız və birlikdə çalışmağımız sayəsində birinci yerə layiq görüldük. Bizə yarış müddətində göstərdiyi dəstəyə görə müəllimlərimizə dərin minnətdarlığımızı bildiririk”.

Fuad Ramazanlı isə əlavə edir ki, məsuliyyətli və texniki cəhətdən mürəkkəb tapşırıqlar çox diqqət və hazırlıq tələb edib: “Biz yarışa qatılmaq üçün müxtəlif seçim mərhələlərindən keçdik. İkinci final mərhələsinə ən yüksək balla vəsiqə qazandıq və rezinlə hərəkət edən avtomobil modelinin hazırlanması tapşırığını uğurla yerinə yetirdik”. O bildirir ki, günlərlə çəkən layihələndirmə, modelləşdirmə və çap prosesləri komandanın həm bilik, həm də bacarıqlarını sınayıb. Bütün bunların sonunda qazandıqları uğur onları daha da ruhlandırıb.

Qeyd edək ki, təşkil olunan festivalda iştirak və qalibiyyət göstəricilərinə əsasən Naxçıvan məktəbliləri bu il SAF 2025 çərçivəsində son 5 ilin ən böyük uğuruna imza atıblar.

# Yarpaqların məktubu



Payız sükutla gəlir… Onun gəlişi nə yaz kimi hay-küylü, nə də yay kimi coşğuludur. O bir qədər utancaq, bir qədər də təmkinli addımlarla həyət-bacanı, küçələri dolaşır. Sarı yarpaqlar havada uzun-uzadı fırlanıb torpağa qovuşarkən insanın içində qəribə bir nisgil oyadır. Elə bil, hər yarpaq bir ömür hekayəsini, hər külək də bir xatirəni pıçıldayır.

Elə günəş də payızda başqa cür doğur. Nə çox istidir, nə də soyuq, sadəcə, işığı ilə insanı qucaqlayır. Bu işıq sanki qızılı rəngə boyanmış bütün yarpaqlardan süzülür, küçələri bəzəyir. Payızda günəş də, ay da, ulduzlar da düşüncəyə dalır. Onlar da təbiətlə birgə susur.



Payız rənglərin fəslidir. Rəssam təbiət əlini elə bil, ən gözəl boyalara uzadır: sarı, narıncı, qırmızı… Ağacların üzərindəki hər bir yarpaq təbiətin kətanına vurulmuş fırça izidir. Bu rənglər insanın qəlbinə də sirayət edir. Hər kəs payızda bir az daha çox düşüncəyə dalır, bir az daha çox kövrəlir.

Küləyin gətirdiyi yarpaq xışıltısı, yağışın damlardan süzülən damcıları bir musiqi kimidir. Amma o musiqini də yalnız dinləməyi bacaranlar eşidə bilir. Hər damcı həyatın ötəriliyindən danışır, hər külək insana zamanın sürətini xatırladır. Payızın sükutu da danışır, əslində. Bu sükutun özündə gizli bir fəlsəfə, gizli bir hekayə var.

Bu fəsildə insan ruhu daha həssas olur. Təbiətin dəyişən siması insanın iç dünyasına da toxunur. Yazda sevinən, yayda coşan ürəklər payızda kövrəlir. Hər kəs içində gizlətdiyi xatirələri xatırlayır. Uşaqlıqda məktəb yolunda gələrkən bilərəkdən əzdiyimiz xışıldayan yarpaqlar, nənəmizin bişirdiyi təndir çörəklərinin, qovurduğu əriştələrin qoxusu… Hamısı bir-bir göz önünə gəlir.



Payız bir az da tənhalıq fəslidir. Yağışlı havada pəncərə önündə oturub damcıların rəqsini izləmək, kənarda əsən küləyi dinləmək insanı özünə qapadır. Ancaq bu tənhalıq kədər gətirmir, əksinə, ruhu saflaşdırır. Elə bu fəsil insana öyrədir tənhalığın bir məktəb, susmağın bir hikmət olduğunu.

Bizim kəndlərdə payız tamam başqa ovqatla qarşılanır. Kəndli üçün bu fəsil zəhmətin bəhrəsini toplamaq zamanıdır, əslində. Artıq bağlarda üzümlər yığılır, narların ən qırmızıları səbətlərə düzülür, ağacdan qoz-fındıqlar çırpılaraq yığılır. Təzə qoyulmuş turşunun qoxusu bütün həyəti bürüyür.





Bu fəslin kənddə öz ahəngi, öz rəngi, öz bərəkəti var.

Hər düşən yarpaq bir ötən günü xatırladır. Hər əsən külək bir ayrılığın səsini gətirir. Ancaq hər bir son, eyni zamanda yeni bir başlanğıcdır. Payız öyrədir ki, heç nə əbədi deyil, amma hər bitişdən sonra yeni başlanğıc var.

Bu fəslin fəlsəfəsi insana səbir və ümid verir. Təbiət necə ki yazda yenidən oyanır, insan da hər qaranlıqdan sonra işığı tapır. Payız da sanki insanı düşünməyə çağırır: “Zəhmətin bəhrəsini aldınmı? Ümidlərini qoruya bildinmi? Yeni başlanğıca hazırsanmı?”

Payız insana həm tənhalığı sevdirməyi, həm də xatirələri yaşatmağı öyrədir. Hər küçə, hər ağac, hər damcı insanla danışır.

Bu fəsil təbiətin qəlbindən süzülən məktubdur. Yarpaqlar kağız, küləklər isə sətirləri. O məktub bizə deyir ki, yarpaqlar torpağa qovuşanda, torpaq yeni həyatın toxumlarını cücərdir. Bəlkə də, payızın ən gözəl dərsi budur, yarpaqlar torpağa düşəndə ölümü yox, sabah doğulacaq yazı pıçıldayır.

**Elnurə CƏFƏROVA**
**Foto: Zülfüqar QURBANLI**

# Naxçıvanlı cüdoçular ölkə liqasının mükafatçıları arasında



Bakı şəhərində cüdo üzrə U-14 yeniyetmələr arasında liqa yarışının IV – sonuncu turuna yekun vurulub. Abşeron Olimpiya İdman Kompleksində keçirilən yarışa Naxçıvandan məşqçi Orxan Quliyevin rəhbərliyi ilə 5 cüdoçu qatılıb. Onlardan 2-si mükafatçı olmağı bacarıb.

Təmsilçilərimizdən Ləman Bağırova qızların yarışında 28 kq çəki dərəcəsində 4 görüş keçirib. İdmançı finaladək qələbə ilə irəliləsə də, həlledici görüşdə istəyinə çata bilməyib və gümüş medal qazanıb. Oğlanların yarışında mübarizə aparan İsmayıl Şükürlü də eyni qaydada çıxış edib, 60 kq çəkidə gümüş medalçı olub.

Qeyd edək ki, Ləman Bağırova sonuncu turdan öncə reytinq sıralamasına başçılıq edir. Yekun sıralama Azərbaycan Cüdo Federasiyası tərəfindən açıqlanacaqdır.

## İtmişdir

Ordubad CONSTRUCTİON MMC-yə məxsus lisenziya, möhür və 1605405911 nömrəli VÖEN itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Şəkərabad kəndində yaşamış Həsənov Səxavət Lətif oğlunun adına olan MH-0041192 nömrəli torpaq sahəsinin plan və ölçüsü itdiyindən etibarsız sayılır.

***

Kəngərli rayonu, Qarabağlar kənd sakini Hüseynov Əzim Rəhim oğlunun adına olan JN-962$^{B}$ nömrəli, 10800078 kodlu “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Sədərək rayonu, Sədərək kənd sakini Abdullayev Paşa Tağı oğlunun adına olan JN-1133$^{A}$ nömrəli, 10101008 kodlu “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Kəngərli rayonu, Xok kənd sakini Məjlumov Nadir Nəsir oğlunun adına olan JN-545$^{B}$ nömrəli, 10800038 kodlu “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Şahbazov Vilayət Tarverdi oğlunun adına olan evin 2417 inventar nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Kəngərli rayonunda yaşamış Kazımova Zinyət Məhəmməd qızının adına olan JN-247$^{B}$ nömrəli, 10200028 kodlu “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Sədərək rayonu, Dəmirçi kənd sakini Dadaşov Cabbar Oruc oğlunun adına olan JN-044$^{A}$ nömrəli, 1020008 kodlu “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Sədərək rayonu, Dəmirçi kənd sakini Quliyev Abuzər Bayram oğlunun adına olan JN-874$^{A}$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Sədərək rayonu, Dəmirçi kənd sakini Quliyev Akif Abuzər oğlunun adına olan JN-381$^{A}$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Ordubad rayonu, Biləv kənd sakini Əsədov Məharət Əsəd oğlunun adına olan A-011838 nömrəli, 107013001598 reyestr nömrəli torpaq sahəsinin plan və ölçüsü itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Badaşqan kənd sakini Məmmədova Könül Sabir qızının adına olan AA-007861 nömrəli, 103013004321 reyestr nömrəli torpaq sahəsinin plan və ölçüsü itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, Əliabad qəsəbə sakini Əliyev İsa Vəli oğlunun adına olan A-464264 nömrəli Əfqanıstan müharibəsi veteranı vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Sirab kənd sakini Orucov Lətif Məmməd oğlunun adına olan JN-23$^{A}$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Cəhri qəsəbə sakini Ruşanov Sahib Hidayət oğlunun adına olan JN-664$^{A}$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Nehrəm qəsəbə sakini Hüseynov Telman Əhmədalı oğlunun adına olan JN-1834$^{A}$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Babək rayon sakini İbrahimov Əbülfəz Məhəmməd oğlunun adına Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi Azərterminal Kompleks Birliyi tərəfindən verilmiş 2620 nömrəli döş nişanı itdiyindən etibarsız sayılır.

ŞƏRQ QAPISI
Baş redaktor:
SARA ƏZİMOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Vöen: 0200065441

Çapa imzalanmışdır 00:00
Tiraj: 550. Sifariş № 281

Nömrəyə məsul: Ceyhun Məmmədov, Türkanə Əsədova, Elnurə Cəfərova
Dizayner: Həbibə Allahverdiyeva
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.